

## Qazi adını yüksək tutaq

4

**Səs**

№ 98 (6539) 4 iyun 2022-ci il. Qiyməti 60 qəpik

# Ağalıdan başlayan "Böyük Qayıdış"!

*İlham Əliyev: "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır"*

2



# Laçın dəhlizində RSK "nəzarəti", yoxsa erməni özbaşınalığı?



## Azərbaycan ilə YUNESKO arasında əməkdaşlıq münasibətləri: 30 ilin reallıqları

*Dünya ölkələri arasında elm, təhsil və mədəniyyət körpüsü salmaq və bu vasitə ilə bütün dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək göstərmək məqsədini həyata keçirən YUNESKO bu ali ideyasını bir xətt olaraq davam etdirir. Xalqların dil, din və irqindən asılı olmayaraq, əməkdaşlığın genişləndirilməsində, sülh və təhlükəsizliyin möhkəmləndirilməsində müstəsna rola malik olan bir təşkilat kimi 1945-ci ildən fəaliyyətdədir.*



3

9

## Dövlət proqramı vasitəsilə xaricdə təhsil üçün kimlərə üstünlük veriləcək?



## Müşfiqsiz nə o bağ, nə o tar, nə o Dilbər...



Müşfiq və Dilbər, 1934-cü il.

*Deyirlər şair olmaq heç də asan deyil. Fərqli yaradılmalısan. Bir küçədən, bir dalandan keçəndə, bir bağa yolun düşəndə sübhün şehini yarpaqlar üzərində görməyi bacarmalısan. Payızın xəzəlinin pıçıltısını duymalısan. Qisməti, taleyi ayaqlar altında xışıltı nəğməsi oxumaq olan yarpaqlarla danışmalısan. Bir bağın gülünün, çiçəyinin bəzən qönçəsi, bəzən günəşə boylanan tam açmış gözəli, bəzən solub kolların altına tökülən ömrü bitmiş ləçəyi olmalısan...*

7

## Açıla bilməyən Ukrayna düyünü

*Rusiya-Ukrayna savaşının sonu görünmür. Bu müharibəyə çevrilmiş qarşıdurmanın səbəbləri nədir? Niyə Rusiya Ukraynanı əldən vermək istəmir? Dünya Ukraynanı müstəqil ölkə olaraq dəstəkləyir və BMT sənədlərində bu ölkənin konkret sərhədləri təsbit olunub.*



11

## Qızını öldürən ata tutuldu



*İyunun 3-ü saat 12 radələrində Abşeron rayon sakini 1987-ci il təvəllüdlü Jalə Davudovanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat verilib.*



## Bu futbolçu illik 19 milyon avroluq maaşı rədd etdi!

16

Münhen "Bavariya"sının futbolçusu Serj Qnabri klubun yeni müqavilə təklifini rədd edib. Qol.az xəbər verir ki, bu barədə "Bild" məlumat yayıb.

# Ağalıdan başlayan "Böyük Qayıdış"!

## İlham Əliyev: "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır"





*Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər zamanı dövlət başçısı Qarabağımıza "Böyük Qayıdış"ın rəmzi olan, Zəngilanın Ağalı kəndinin "Ağıllı kənd" layihəsi ilə yenidən qurulmasının başa çatması ilə əlaqədər Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə demişdir ki, Müstəqillik Günü ərəfəsində burada olmalı idimi: "Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq"."Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır", - deyə dövlətimizin başçısı vurğulayıb."Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqillik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir",-deyən Azərbaycan Prezidenti bildirib ki, bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil: "Bunu yaxın tarix göstərir. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır".

### "BİZ GÜCLÜ OLMASAQ, İSTƏDİYİMİZ KİMİ YAŞAYA BİLMƏRİK"

Dövlət başçısı Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə görüşdəki çıxışında dünyada güc amilinin ön planda olması və ölkəmizin öz gücünü artırmasının zəruriliyi məsələsinə də toxunub. Dövlət başçısı çıxışında bu barədə deyib: "Bu gün güc amili ön plandadır. Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də".Güc amilinin bundan sonra da dünyada hakim olacağını vurğulayan Azərbaycan Prezidenti qeyd edib: "Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında bu il ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılıb, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd apara bilər. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur".



### "ƏSL MÜSTƏQİLLİK HƏYATIMIZ XALQ ULU ÖNDƏRƏ MÜRACİƏT EDİB ONU HAKİMİYYƏTƏ DƏVƏT EDƏNDƏN SONRA BAŞLAYIB"

"İlk Xalq Cümhuriyyəti yaradılanda vəziyyət fərqli idi. Əlbəttə, rus imperiyasının dağılması nəticəsində Azərbaycan xalqı 104 il bundan əvvəl müstəqilliyə qovuşdu".Dövlət başçısı bildirib ki, ancaq birinci respublika çox yaşaya bilmədi, süqut etdi, cəmi iki ilə yaxın müddət ərzində yaşamışdır: "Düzdür, bir çox önəmli addımlar atılmışdır və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini biz daim hörmətlə anırıq. Ancaq, eyni zamanda, onu da bilməliyik ki, müstəqillik cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, müstəqilliyi qoruya bilmədi və Azərbaycan xalqı azadlıqdan məhrum edildi. Bununla bərabər, hamımız yaxşı bilirik ki, o vaxt Ermənistan millətçiləri xalqımıza və gənc Xalq Cümhuriyyətinə qarşı təcavüzə başlamışdılar və bunun nəticəsində Azərbaycan xalqı böyük əzablar yaşamışdır".Azərbaycan Prezidenti 1993-cü ildən başlayaraq xalqın Ulu Öndərə müraciət etdiyini və bкndan sonra əsl müstəqillik həyatının başlandığının deyib: "1993-cü ildən başlayaraq xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət edəndən sonra əsl müstəqillik həyatımız başlamışdır. Bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır"."Nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə xalqımız böyük faciələrlə üzləşmişdi. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində Qələbə qazandıq, tarixi Qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq", - deyə Prezident vurğulayıb.

### "BU GÜN GÖZƏL ZƏNGİLAN TORPAĞINDA HƏYAT QURURUQ"

"Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü, həm ədaləti, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq",-deyən Azərbaycan Prezidenti Zəngilana, başqa yerlərə, Şuşaya həyatın qayıtdığını deyib: "İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək".

Dövlət başçısı Zəngilanda böyük aqropark salındığını və bu il ilk məhsul götürüləcəyini də dedi: "Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək".

### "BÖYÜK QAYIDIŞ"IN GERÇƏKLƏŞƏCƏYİ GÜNƏ ÇOX AZ VAXT QALDI...

1993-cü ilin oktyabrın 30-da Zəngilan erməni silahlı qüvvələrinin işğalına məruz qalandan sonra rayonun 45 minlik əhalisi məcburi olaraq ölkənin 43 rayonunda müvəqqəti məskunlaşan, zəngin təbii sərvətləri, tarixi və dini memarlıq abidələri olan bu gözəl diyarı başdan-başa tarmar edilən Zəngilan 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimizin başladığı güclü əks-hücum əməliyyatları nəticəsində, 44 günlük Zəfər yürüşü ilə doğma torpaqlarımız, o cümlədən Zəngilan düşmən tapdağından azad olunub. Bu gün Zəngilan quruculuq meydanına çevrilib. Artıq "Böyük qayıdış"ın gerçəkləşəcəyi günə çox az vaxt qalır. Bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, onlara həyat qayıdır. Onilliklər boyu yurd həsrəti ilə yaşayan vətəndaşlarımızın qısa müddət ərzində öz dədə-baba torpaqlarına qovuşdurulması üçün böyük işlər həyata keçirilir - "Ağıllı kənd" layihəsinin tətbiq edildiyi Zəngilanın Ağalı kəndi ilə başlayır.Və Zəngilanın "ağıllı kəndi"Ağalı da bu "Böyük Qayıdış"ın ilk ünvanı, doğma sakinlərinə əbədi qovuşan ilk bəxtiyar diyar oldu.

Sonda fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə "Böyük Qayıdış" üçün bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. Və bu gün hamı "Böyük Qayıdış" gözləyir, o günə çox az qalıb...

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan ilə YUNESKO arasında əməkdaşlıq münasibətləri: 30 ilin reallıqları

***Dünya ölkələri arasında elm, təhsil və mədəniyyət körpüsü salmaq və bu vasitə ilə bütün dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək göstərmək məqsədini həyata keçirən YUNESKO bu ali ideyasını bir xətt olaraq davam etdirir. Xalqların dil, din və irqindən asılı olmayaraq, əməkdaşlığın genişləndirilməsində, sülh və təhlükəsizliyin möhkəmləndirilməsində müstəsna rola malik olan bir təşkilat kimi 1945-ci ildən fəaliyyətdədir. YUNESKO 1946-cı ildə 20 üzv dövlətlə rəsmi fəaliyyətə başlamışdırsa, bu gün artıq dünya ölkələrini özündə birləşdirmək gücündə olduğundan, bu əməkdaşlıq 190-dan artıq dövlətlə qurulub. Bu dövlətlər sırasında Azərbaycanın da yeri var. YUNESKO ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu mühümdür.***





Bu gün artıq Azərbaycanın YUNESKO-nun üzvlüyünə qəbul olmasının 30 ili tamam olur. Ötən 30 il ərzində Azərbaycan ilə YUNESKO arasında əməkdaşlıq münasibətləri yüksələn xətlə inkişaf edib və ölkəmiz, iştirakçısı olduğu bütün beynəlxalq platformalarda, o cümlədən YUNESKO çərçivəsində dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində etibarlı tərəfdaşa çevrilib.

Belə ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü ilin dekabr ayında Fransa Respublikasında rəsmi səfərdə olarkən YUNESKO-nun o vaxtkı baş direktoru Federiko Mayorla görüşü bu əlaqələrin yaranmasında addım olub. Bu görüşün nəticəsi olaraq YUNESKO-ya üzv dövlət kimi 1994-cü ildə Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiya yaradılıb. Bu Milli Komissiya Azərbaycanın YUNESKO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir. Ulu Öndər Heydər Əliyev Azərbaycan və YUNESKO əlaqələrinin inkişaf perspektivlərini nəzərə alaraq, hər zaman bu sahəyə diqqət ayırırdı. Daha sonra Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan YUNESKO ilə əlaqələri möhkəmləndirmək və Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə ölkəmiz YUNESKO çərçivəsində qəbul edilmiş bir sıra konvensiyalara qoşulur. Belə ki, silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında 1954-cü il tarixli Konvensiya, Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında 1972-ci il tarixli Konvensiya, Asiya və Sakit okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında 1983-cü il tarixli regional Konvensiya mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında 1970-ci il tarixli Konvensiyası Azərbaycanın qoşulduğu YUNESKO konvensiyalarından yalnız bir neçəsidir. Bu konvensiyalara qoşulmaq əhəmiyyət kəsb edən məsələlərdir.

## HEYDƏR ƏLİYEV FONDU YUNESKO İLƏ MÜNASİBƏTLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ SANBALLI TÖHFƏLƏR VERİB

Ümummilli Lider Heydər Əliyevin müvafiq Sərəncamı ilə 1994-cü ildə Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyası yaradılıb və növbəti illərdə bu təşkilatla Azərbaycan arasında əməkdaşlıq daha da inkişaf etdirilib. Məqsəd və prinsiplərinə sadiq qalaraq, təşkilatın bütün prioritet istiqamətləri üzrə fəaliyyətini davam etdirən Azərbaycan bu gün YUNESKO-nun ən fəal üzvlərindən biridir.

Ardı Səh. 4





# Azərbaycan ilə YUNESKO arasında əməkdaşlıq münasibətləri: 30 ilin reallıqları





Əvvəli-Səh-3

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu mötəbər təşkilatla əlaqələrin inkişaf etdirilməsinə böyük diqqətlə yanaşır. Görülən işlərin davamı olaraq 2005-ci il tarixində Prezident İlham Əliyev YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində qurduğu geniş əməkdaşlıq əlaqələri ölkəmizin milli-mədəni ənənələrə sadiq qalaraq dünya sivilizasiyasına inteqrasiyası üçün əlverişli şərait yaradıb.

Müasir dövrümüzdə Azərbaycan YUNESKO münasibətlərinin inkişafında və möhkəmlənməsində Heydər Əliyev Fondunun xüsusi xidmətlərini qeyd etməliyik. Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın Xoşməramlı Səfiri adına layiq görülüb. Mehriban xanım Əliyevanın ciddi səyləri nəticəsində Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunmuş, Qobustan Dövlət tarixi-bədii qoruğu Dünya Mədəni İrs Siyahısına daxil edilmişdir. Aşıq sənəti və Novruz bayramı da YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısında yer almışdır.

YUNESKO ilə Azərbaycan arasında elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi üçün Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda da bir sıra beynəlxalq tədbirlər keçirilmişdir. YUNESKO-nun baş direktoru Azərbaycanda səfərdə olarkən, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin təbliği, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərinə, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfələrinə görə Mehriban xanım Əliyevaya "Qızıl Motsart" medalı təqdim etmişdir.

### AZƏRBAYCANIN 3 MADDİ İRS VƏ 15 QEYRİ-MADDİ İRS NÜMUNƏSİ YUNESKO-NUN SİYAHILARINA DAXİL EDİLİB

Davamlı və dinamik iqtisadi inkişaf yolu keçən Azərbaycan dünyanın müxtəlif yerlərində YUNESKO-nun nəcib missiyasını dəstəkləyir. YUNESKO dəyərlərinin, eləcə də mədəniyyətlərarası dialoq və sülhün təşviqi ideyasının həyata keçirilməsi istiqamətində təşkilatla sıx əməkdaşlıq edir və donor dövlət kimi bir sıra birgə layihələr həyata keçirir. Ölkəmiz 2013-cü ildə YUNESKO ilə imzalanmış Çərçivə Sazişinə uyğun olaraq təsis edilmiş Etimad Fondu vasitəsilə Təşkilatın fəaliyyət istiqamətləri üzrə proqram və layihələrə öz dəstəyini göstərir.

Azərbaycan YUNESKO əlaqələri ildənilə daha da genişlənir. Təşkilatın 36-cı sessiyasında Azərbaycan YUNESKO Baş Konfransının vitse-prezidenti seçilmişdir. Daha





sonra Azərbaycanın YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin vitse-prezidenti seçilməsi bu əlaqələrin daha da möhkəmliyinə dəlalət edir.

Bu, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək fəaliyyəti sayəsində ölkəmiz ilə qurum arasında əlaqələrin möhkəm bir şəkildə qurulmasını özündə ehtiva edir. Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyilə Azərbaycan YUNESKO münasibətləri yüksək inkişaf səviyyəsinə yüksəlib. YUNESKO hər bir xalqın mədəniyyətinin dünyaya çatdırılması üçün mühüm vasitədir. Bu mühüm vasitə ilə Azərbaycan mədəniyyətinin təbliğində, onun həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında rola malikdir. YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin növbəti 6-cı sessiyasında Ermənistan tərəfindən təqdim olunan "Erməni Aşıq sevgi romansı ənənəsi" və "Erməni su festivalı Vardavar" adlı fayllar Qarabağla bağlı təxribat xarakterli olduğundan qəbul edilməyib. Bu, YUNESKO-nun Azərbaycana olan obyektiv münasibətinin təzahürü kimi qiymətini almışdır.

Bu illər ərzində Azərbaycanın 3 maddi irs və 15 qeyri-maddi irs nümunəsi YUNESKO-nun müvafiq siyahılarına daxil edilib.

Aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq, ölkəmiz 2021-ci ilin noyabr ayında YUNESKO Baş konfransının 41-ci sessiyası zamanı keçirilən seçkilərdə üzvlərin böyük əksəriyyətinin dəstəyini qazanmaqla 2021-2025-ci illər üzrə YUNESKO-nun İcraiyyə Şurasının üzvü seçilib. Azərbaycanın 3 şəhəri - Bakı, Gəncə və Qəbələ YUNESKO-nun Öyrənən Şəhərlər Şəbəkəsində, Bakı, Şəki və Lənkəran şəhərləri isə təşkilatın Yaradıcı Şəhərlər Şəbəkəsində yer almaqdadır.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan COVID-19 pandemiyasının təsirlərinin aradan qaldırılması məqsədilə YUNESKO-nun təşəbbüsü ilə təsis edilən Qlobal Təhsil Koalisiyasına qoşulan və maliyyə töhfəsi verən ilk ölkələrdən biri olub.

### "YUNESKO-NUN NÜMAYƏNDƏLƏRİ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ SƏFƏR EDƏRƏK ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ DAĞINTILARI ÖZ GÖZLƏRİ İLƏ GÖRSÜNLƏR"

Otuz il ərzində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı zamanı mədəni və dini irsimizin dağıdılması, təhqir edilməsi, mənimsənilməsi, mahiyyətinin dəyişdirilməsi, mədəni sərvətlərin ölkəmizdən qeyri-qanuni çıxarılması kimi müharibə cinayətləri barədə YUNESKO mütəmadi olaraq məlumatlandırılıb. Ölkəmizin əraziləri işğaldan azad edildikdən sonra bütün ölkə boyu olduğu kimi, bu ərazilərdəki abidələrin mənşəyindən asılı olmayaraq bərpası və mühafizəsi Azərbaycan hökuməti üçün prioritet təşkil edən məsələlər sırasında yer alıb. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət kimi bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirir.

Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. Bu gün dünya ölkələrinin nümayəndələri, dövlət təşkilatları işğaldan azad olunan ərazilərə səfər edirlər. Amma bu gün nədənsə, YUNESKO-nun nümayəndələri işlaldan azad olunan ərazilərimizə səfər etməyiblər. Cənab Prezident İlham Əliyevin bildirdiyi kimi, YUNESKO-nun nümayəndələri işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər: "Lakin təəssüflər olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər".

Bildiyimiz kimi, işğalda olan ərazilərimizdə 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidinin, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Bütün dünyaya ermənilər Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstərdilər. Məlumdur ki, Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib. Artıq işğaldan azad olunan ərazilərimizdə dini abidələrin bərpasına start verilib. Vurğulayaq ki, ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir.

***Zümrüd BAYRAMOVA***



# Meymun çiçəyi virusunun simptomları nələrdir?

***Covid-19** pandemiyasından sonra dünyanın müxtəlif yerlərində narahatlıq yaratmağa başlayan viruslardan biri də son zamanlarda ortaya çıxan meymun çiçəyi virusudur. Əvvəlki illərdə məlum olan və daha çox Afrika qitəsinin qərb və mərkəzi hissələrində müşahidə olunan virus, son zamanlar insanlara müxtəlif şəkildə təsir etməyə başlayıb. Gəmiricilərdə və vəhşi heyvanların bədənlərində görülən meymun çiçəyi virusu xəstə heyvanlardan insanlara keçərək insanlar arasında yayılır. Keçmişdə vəhşi heyvanlardan insanlara ötürülmə məhdud olduğundan və insandan insana ötürülməsi intensiv və uzun müddətli təmas tələb etdiyindən yalnız müəyyən bölgələrdə müşahidə edilirdi və ailə daxilində hadisələr məhdud idi.*

## Meymunçiçəyi virusu nədir?

Meymunçiçəyi, Poxviridae virus ailəsinə və Orthopoxvirus cinsinə aid olan Monkeypox virusunun yaratdığı xəstəlikdir. Xəstəliyin adı meymun çiçəyi olsa da, əslində virus gəmiricilərdən əmələ gəlir. 1958-ci ildə araşdırma üçün saxlanılan meymun koloniyalarında çiçək xəstəliyinə bənzər əlamətləri olan iki fərqli epidemiya nəticəsində aşkarlanan virusa bu səbəbdən meymun çiçəyi adı verilmişdir. İnsanlarda meymun çiçəyi virusuna yoluxma ilk dəfə 1970-ci ildə müşahidə edilmişdir. Tropik yağış meşələrinin bol olduğu və bu bölgə ilə məhdudlaşdığı Qərbi və Mərkəzi Afrikada uzun illərdir müşahidə edilən meymun çiçəyi, bölgədən ixrac edilən heyvanların səbəb olduğu çirklənmə ilə nadir hallarda dünyanın müxtəlif bölgələrinə çata bilirdi. Lakin son zamanlar bu xəstəlik keçmişə nisbətən daha geniş yayılıb və müxtəlif bölgələrdən olan müxtəlif insanlarda diaqnoz qoyulub.

## Meymunçiçəyi virusunun simptomları nələrdir?

Meymun çiçəyi insanlara virusa yoluxmuş heyvandan və ya meymun çiçəyi ilə yoluxmuş başqa bir insandan keçə bilər. Hər bir virusda olduğu kimi, meymun xəstəliyində də inkubasiya dövrü var. İlk simptomların görünüşü 5 ilə 21 gün arasında istənilən vaxt baş verə bilər. Ən çox görülən simptomun başlanğıcı 6-13 gündür. Semptomlar keçmişdə böyük epidemiyalara səbəb olan çiçək xəstəliyinə bənzəsə də, bir qədər fərqli şəkildə irəliləyir. Ən əsas simptomlar arasında:

Yüksək hərarət
Baş, kürək və əzələ ağrıları
Limfa düyünlərində şişkinlik
Yorğunluq vəziyyəti
Üşümə və titrəmə
Dəridə su çiçəyinə bənzər, su ilə dolu kiçik qabarcıqlar kimi görünən səpgilər

Meymun xəstəliyində səpgilər ilk simptomların başlanmasından 1-5 gün aralığında müşahidə olunur. Əsasən ilk səpgilər üz nahiyəsində müşahidə olunur. Sonra bədənin digər hissələrinə yayılır. Bəzi xəstələrdə lezyonlar cinsiyyət orqanlarında, gözlərdə və ağızda da görünə bilər. Bu oxşarlığına görə xəstəlik suçiçəyi ilə qarışdırıla bilər. Əvvəlcə su ilə doldurulmuş blisterlər olsa da, zaman keçdikcə bunlar qabıqlı ləkələrə çevrilir və sağalmağa başlayır. Bəzi xəstələrdə lezyonlar bədənə yayılan yüzlərlə blisterdən ibarətdir, bəzi xəstələrdə isə daha az blister meydana gəlir. Güclü hallarda, lezyonlar birləşir və dərinin səthində geniş səpgilərə səbəb olur. Xəstəliyin şiddətindən asılı olaraq səpgilər 2-4 həftə ərzində tamamilə yox olur və xəstəlik sağalır. Meymun xəstəliyində ölüm nisbəti 3-6% qədər aşağıdır. Onların böyük bir hissəsi ikinci dərəcəli xəstəlikləri olan gənc xəstələr qrupudur.

## Meymunçiçəyi virusu yoluxucudurmu?

Virus yoluxucudur. Xəstəlik adətən siçan və dələ kimi gəmiricilərdən ötürülür. Vəhşi heyvanlar virusun insanlara ötürülməsinin ən mühüm vasitəsi kimi görülür. Virusa yoluxmuş bir heyvanın dişləməsi, bu heyvanların bədən mayelərinə, dərisinə və ya xəstəlikdən qaynaqlanan səpkilərə toxunması, xəstə heyvanın az bişmiş ətinin yeyilməsi, kürkündən istifadə edilməsi kimi bir çox hallar yoluxmaya səbəb ola bilər. Bu yolla insanlara keçən meymun çiçəyi virusu insanlar arasında yayılaraq epidemiyaya çevrilmə riski yaradır. Xəstə fərdin bədənindəki səpgilər və bu qabarcıqlardakı mayelər xəstəlik faktorunu ehtiva edir. Odur ki, xəstə adamın səpgilərinə toxunmaq, bu səpgilərlə çirklənmiş paltar, çarşaf, dəsmal və bu kimi əşyaları paylaşmaq kimi hallar asanlıqla xəstəliyin ötürülməsinə səbəb ola bilər. Bundan əlavə, xəstənin öskürməsi və ya asqırması ilə yayılan damcı yolu ilə xəstəliyin ötürülməsi mümkündür. Bu səbəbdən meymun çiçəyinə bənzər dəri zədəsi olan insanlar gigiyenik tədbirlərə diqqət edilərək dərhal səhiyyə müəssisələrinə aparılmalıdır. Xəstəlik diaqnozu qoyulmuş şəxslərlə təmas minimuma endirilməli, imkan daxilində karantin şərtləri tətbiq edilməlidir.

## Meymunçiçəyi virusundan qorunmağın yolları:

Meymun çiçəyi olduqca nadir bir xəstəlikdir. Ona görə də bu gün bizim ölkə şəraitində bu xəstəliyə yoluxma ehtimalı çox aşağıdır. Lakin son vaxtlar qeydə alınan halların sayının artdığını və gözlənilməz ölkələrdə və insanlarda xəstəliyin ortaya çıxmasını nəzərə alsaq, virusa qarşı gigiyena qaydalarına diqqət yetirməkdə fayda var. Bütün xəstəliklərdən qorunmağa kömək edən gigiyena qaydalarına diqqət yetirmək qorunmanın ən vacib mərhələsidir. Bunun üçün əllər mütəmadi olaraq sabun və su ilə yuyulmalı, çirkli səthlərə toxunduqdan sonra əllər təmizlənənə qədər heç vaxt üzə və tənəffüs orqanlarına toxunulmamalıdır. Heyvan əti mühüm ötürülmə yolu olduğundan, yalnız yaxşı bişmiş ət istehlak edilməlidir. Bundan başqa təbiət qoynunda vaxt keçirən insanlar da diqqətli olmalıdırlar. Sahibsiz və vəhşi heyvanlara, o cümlədən ölü heyvanlara yaxınlaşmaq olmaz. Gəmiricilər xəstəliyin əhəmiyyətli ötürülmə yolu olduğundan, siçan kimi heyvanların aşkar edildiyi ərazilər varsa, bu ərazilər ətraflı şəkildə təmizlənməli və dezinfeksiya edilməlidir. Belə yerlərdə saxlanılan ərzaq məhsulları varsa, onlar da məhv edilməlidir. Dərisində suçiçəyinə bənzər qabarcıqları olan və qızdırma, üşütmə, üşütmə kimi infeksiya əlamətləri olan şəxslər mütləq səhiyyə müəssisələrinə müraciət edərək müayinədən keçməlidirlər. Bu şəxslərin istifadə etdiyi paltarlar, dəsmallar və çarpayılar kimi məhsullara toxunulmamalı, ümumi istifadə varsa dərhal dayandırılmalıdır.

Ölkəmizdə hələ ki meymun çiçəyi virusuna yoluxma faktı qeydə alınmayıb. Bununla belə, qısa müddətdə müxtəlif ölkələrdən gözləniləndən çox yoluxma halları bildirildiyi üçün virusa qarşı diqqətli olmaqda fayda var. Bu səbəbdən də əgər sizdə çiçək xəstəliyinə bənzər dəri səpgiləri yaşayırsınızsa və hər hansı infeksiya əlaməti müşahidə edirsinizsə, səhiyyə müəssisəsinə müraciət edərək həkim nəzarətindən keçə bilərsiniz. Beləliklə, mümkün xəstəliklərinizin yayınlarınıza sirayət etmədən erkən aşkarlanmasını və müalicə olunmasını təmin edə bilərsiniz.



SİA mövzu ilə bağlı araşdırma apararaq infeksionist həkimlərin fikirlərini öyrənib.

**Həkim-infeksionist Xatirə Əliyeva:** "Meymun çiçəyi" virusu intoksikasiya dəri və selikli qişalarda vezikula pustula səpki ilə xarakterizə olunan kəskin infeksion xəstəlikdir. Bu virus ilk dəfə 1958-ci ildə meymunlardan əldə edilib. Xəstəliyə ən çox Afrika ölkələrində təsadüf olunur.

xəstəliyin əsasən 2 ştammı var ki, bunlar Mərkəzi və Qərbi Afrika ştamıdır: ""Meymun çiçəyi" xəstəliyi pandemik infeksiya deyil, tək-tək rast gəlinən infeksiyadır. Ən çox 4 yaşa qədər uşaqlar arasında təsadüf edilir və ölüm faizi isə 4 faiz ilə 22 faiz arasında olur.

Hal-hazırda bu xəstəlik Portuqaliya, Böyük Britaniya və İspaniyada qeydə alınıb. Hələlik Azərbaycanda yoxdur. Lakin insanların ölkələrə səfər etməsi ilə əlaqədar bu xəstəliyin ayrı-ayrı ölkələrə yayılmasına səbəb ola bilər. Çünki infeksiya sərhəd tanımır. Ölkəmizdə də ola bilər ki, tək-tək müşahidə olunsun.

Xəstəliyin keçmə yolu hava, damcı və fiziki təmas yolu ilədir. Xəstəliyin mənbəyi bu infeksiyaya yoluxmuş viruslu insandır.

Bütün infeksion xəstəliklərdə gizli dövr deyilən bir dövr olur. Yəni, insan xəstəliyə yoluxub, lakin əlamətlər 14 gündən sonra üzə çıxır. Gedişi təbii çiçəyi xatırladır. Xəstəlik ümumi zəiflik, titrətmə, baş ağrısı və temperaturun 39-40 dərəcə selsiyə yüksəlməsi ilə başlayır. Sonra xəstənin iştahı pozulur. Əzələ-oynaq ağrıları da qoşulur.

Xəstəliyin 3-4-cü günü dəri və selikli qişalarda əvvəl üzdə, yuxarı ətraflarda, ovucun içində sonra gövdədə və aşağı ətraflarda səpkilər əmələ gəlir. Əsasən xəstəni narahat edən bu səpkilərin qaşınma ilə müşahidə olunmasıdır. Səpkilər monomor xarakteri daşıyır. Yəni, dəri və selikli qişaların üzərində eyni zamanda həm vezikula, pustula həm qabıq, həm də çapıqlaşma müşahidə olunur".

**Həkim-infeksionist Namiq Nəbiyev:** "Meymun çiçəyi hava damcı yolu ilə keçən virus variantıdır. Ən böyük xüsusiyyəti səpki və qaşıntıların olmasıdır. Daha sonra isə səpkinin ucu mayeşəkilli olur. Getdikcə bu mayelər böyüyür qızarır və qaşıntı artır. Daha sonra isə hərarət yüksəlir. Bu da xəstə və onun ətrafı üçün təhlükə mənbəyinə çevrilir. Yoluxma ehtimalı böyükdür. Xəstəyə qulluq etmiş insandan tutmuş, onunla ünsiyyətdə olan insanlara yoluxma ehtimalı çox böyükdür.



Belə xəstələr ən azı 21 gün tam təcrid olunmalıdır. 14 gün müddətində qızartılar solur. 14 gündən sonra isə yaralar qopub düşür. 21 gün tamam olmamış xəstə xəstəxanadan ayrıla bilməz.

1990-cı ilə qədər Azərbaycanda, o cümlədən keçmiş SSR zamanında suçiçəyinə qarşı peyvənd tətbiq olunurdu. Bu insanların 90 faizində immunlaşma prosesi aparılıb və onlarda yoluxma riski azdır. 1991-dən bu iş dayandırılıb. Lakin son zamanlar koronavirusa qarşı vaksin də immun sistemini artırıb və yoluxma riskini minimuma endirib. Bu bizim üçün təhlükə mənbəyi deyil".



**Həkim-infeksionist Vasif Əliyev:** "Meymun çiçəyi" xəstəliyi bizim ölkədə və eyni zamanda qardaş adlandırdığımız Türkiyədə də aşkar edilməyib. İlkin olaraq bu xəstəlikdən qorunmaq üçün xəstə olan insanlardan uzaq durmaq lazımdır. Həmçinin xəstəlik aşkar edilmiş ölkələrə xüsusilə də Afrika ölkələrinə səyahət etmiş insanlar nəzarətə götürülmədir. Həmin insanlar ən azı 3 həftə nəzarətdə olmalıdır. Çünki o insanlarda yoluxma riski ola bilər. Bununla da əlaqədar olaraq həmin insanlarla münasibətdə olmamaq daha məqsədəuyğundur. Bu xəstəlik gedərək artarsa onu lokalaşdırmaq lazımdır. "Meymun çiçəyi" xəstəliyinin qarşısını almaq üçün peyvənd mövcuddur. Xəstəlik geniş vüsət alarsa peyvənd olunaraq qorunmaq olar. Ona görə ki, zamanında çiçək xəstəliyinin də qarşısı peyvəndlə alınaraq, nəsli kəsilmişdir. Bunlardan əlavə olaraq insanlar özlərində temperatur yüksəkliyi, baş ağrısı və bədənin də suçiçəyinə bənzər səpkilər müşahidə edərsə mütləq həkimə müraciət etməlidirlər. Zamanında tətbiq edilmiş müdaxilə xəstənin həyatını qurtarmaqla, digər insanlara bu xəstəliyi keçirməyin də qarşısını alacaq".

***Ayşən Vəli***

# Qazi adını yüksək tutaq

***Vətən torpağının azadlığı uğrunda can fəda edən mərd və cəsarətli oğulları ilə qürur duyur Azərbaycan. Müharibə başlayan ilk günlərdən Azərbaycan xalqının igid övladları düşməndən qisas almaq və 30 ilə yaxın işğal altında qalan əzəli torpaqlarımızın azad olunması məqsədi ilə silaha sarıldılar. Azərbaycan Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək şücaət, qəhrəmanlıq göstərdilər və Vətən torpaqları uğrunda vuruşdular.***

Cənab Prezident çıxışlarının birində vurğuladığı kimi, ”Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”. Bu gün vətən torpaqlarının azad olunmasında sağlamlığını itirənlər və şəhid olanların ailələri dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunub. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir və dəyərlidir. Dövlət başçısı çıxışlarının birində onların həyatında yeni dövrün başlandığını bildirmişdir: ”Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək”.

Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu ”2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsini həyata keçirib.

Müharibədə sağlamlığını itirmiş oğullar bütün varlıqları qədər bağlı olduqları Vətənin müqəddəsliyini dərk edərək vuruşmuş, qan tökmüş, şəhid və əlil olmuşdular. Qazilik və şəhidlik müqəddəs addır və onların hər biri müqəddəs yol seçərək bu mərtəbəyə yüksəlmişlər. Bu gün nədənsə, qazi kimi şərəfli ada ləkə gətirmək istəyənlərə təsadüf edirik. Görəsən, buna səbəb nədir? Öz sağlamlığını itirmiş, yaralanmış qazilərin hərtərəfli təminatı ilə bağlı kifayət qədər dövlətimiz tərəfindən işlər görüldüyü halda bu hay-küyə lüzum varmı? Axı bu adı qazanan, qazi olan insanlar müharibəyə yola düşəndə heç bir ad, maddi təminatı belə düşünmədən sağlam təfəkkürlə savaşa qalxdılar. Vətən bütün təminatlardan yüksəkdədir. Bəs, bu gün bir qisim insanlar - ”qazilər” arasında nə baş verir. Özünü qazi kimi təqdim edən və orada olduğunu bildirən ”saxta qazilər”dir belə səs-küy qoparanlar. Əlbəttə ki, belə insanlara qarşı cəmiyyətin baxışı kəskindir. 44 günlük Vətən müharibəsində torpaq uğrunda mücadiləyə qalxaraq, erməni işğalında olan torpaqlarımızın azad olunması yolunda od-alov içinə atılan mərd olularımız belə bir şəkildə hansısa bir etirazlarını bildirərmi? Ön cəbhədə vuruşan oğullarımız, düşmən gülləsi ilə üz-üzə qalanda yalnız ”Vətən” deyiblər. Azərbaycan Zəfər qazandıqdan sonra dövlətimizin şəhid ailələrinə, qazilərə hərtərəfli dəstəyi, onların bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirdi. Cənab İlham Əliyevin müvafiq göstərişi ilə Azərbaycanda yeni ordenlər və medallar təsis edildi. Bu dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür. Diqqət və qayğı ilə əhatə olunmuş qazilərimizin adına xələl gətirən ”qazilər” ən yüksək ucalıqda dayanan adlardan olan qazi adından sui-istifadə edirlər. Dövlətin hərtərəfli dəstəyi, diqqət və qayğısı fonunda qanuna zidd əməllər sərgiləmək əlbəttə ki, yolverilməzdir. Sözsüz ki, bu hamıya şamil oluna bilməz. Vətən adını hər şeydən üstün tutan, bu torpağın namusunu qanı ilə qorumağa can fəda edən oğullarımız ən böyük ehtirama layiqdirlər. Bu gün də danışanda ağzından od püskürən qazilərimizi görəndə fəxr edirik. Dövlətdən hansısa bir formada dəstək və qayğı ummurlar. Heç zaman belə oğullar hansısa bir məqsədi əsas götürərək döyüş meydana atılmayıblar. Dövlətimiz tərəfindən onlara ayrılan diqqət, qayğı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinin, fiziki sağlamlığını itirən qazilərin, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Postmüharibə dövründə şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub. Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib. Bütün bunlar dövlətin diqqət və qayğısı deyilmi? Bütün bunların fonunda hansısa qazinin dövlətdən nəsə unması nə dərəcədə düzgündür. Dünya ölkələrində də müharibələr baş verib. Amma onlara dövlət tərəfindən onlara bu şəkildə qayğı varmı? Vətən torpağı qarşısında borc verərkən təmənna olmur.










Şəhid ailələrinə və əlillərə keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək. Bəs, bu diqqət deyilmi? Müharibədən çıxmış bir dövlətin öz qazisinə bu şəkildə yanaşması onun humanist addımıdır. Dövlət başçısının vurğuladığı kimi, ”Həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir. Çünki Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük”. Cəmiyyətimizdə bir qisim insan tərəfindən sərgilənən neqativ hallar insanlar tərəfindən ikrahla qarşılanır. Əlbəttə ki, cəmiyyətimiz açıq fikirli və hər kəsi öz simasında tanımağı bacarır. Əl-ayağını itirən, dünyaya baxan gözünü itirən, psixoloji travmalar alan vətən oğullarımız heç zaman bu cür hay-küyə qoşulmaz və dövlətin mənafeyin hər şeydən üstün tuturlar. Üzdəniraq insanların addımlarına sosial şəbəkələrdə təsadüf etdikdə, təəssüflənirik ki, Vətənə can fəda edən oğullarımızın adına kölgə salmaq niyyətində olan insanlar kimlərinsə bəlkə də sifarişlərini yerinə yetirirlər. Belə dələduzlar hətta məscidlərin, ziyarətgahların ətrafında sui-istifadə halların yol verirlər. Azərbaycan xalqı tükü-tükdən seçən həssas xalqdır. Qəhrəman oğulları ilə fəxr edən dövlətimizin Mübariz İbrahimov, Podad Həşimov kimi oğulları bir qəhrəmanlıq dastanı yazdılar. Vətən qarşısında oğul borcu olaraq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müşfiqsiz nə o bağ, nə o tar, nə o Dilbər...

***Deyirlər şair olmaq heç də asan deyil. Fərqli yaradılmalısan. Bir küçədən, bir dalandan keçəndə, bir bağa yolun düşəndə sübhün şehini yarpaqlar üzərində görməyi bacarmalısan. Payızın xəzəlinin pıçıltısını duymalısan. Qisməti, taleyi ayaqlar altında xışıltı nəğməsi oxumaq olan yarpaqlarla danışmalısan. Bir bağın gülünün, çiçəyinin bəzən qönçəsi, bəzən günəşə boylanan tam açmış gözəli, bəzən solub kolların altına tökülən ömrü bitmiş ləçəyi olmalısan...***



Müşfiq və Dilbər, 1934-cü il.

Şair olmaq asan deyil... Onların ürəyi tam başqa olur. Gözləri tam başqa baxır, beyinləri tam başqa çalışır. Bir söz eşidəndə qulaqlarından birbaşa qəlblərinə axır, oradakı ələkdən keçib ya sözə çevrilib kağızlar üzərinə səpələnir, ya da ruha çöküb oradaca qalır, saçları ağardır... Onlar baxdıqlarını həm də görəndirlər. Təbiətin bir gözəlliyinə, bir qəribəliyinə, küçədəki bir gözələ, xiyabandakı bir ağaca, çiçəyə, şəhərdəki minlərlə insana hamı baxır, lakin görmək bir ayrıdır, yanaşmalar, hiss edilənlər və bir də ən əsası duyğular tam başqadır... 114 il əvvəl dünyaya gözlərini açan, bəhs etdiyim bu duyğuların hər biri anadangəlmə qanına, canına hopan bir Müşfiq vardı. Ətrafa qəlbinin gözləri ilə baxan, ürəyi Vətəninə, anasına, sevdiyinə və ümumilikdə gördüyü hər nələrəsə qəribə bir məhəbbətlə dolu Müşfiq... Bu dünyadan cəmi 29 il, 8 ay qoparıb ona baxmağı bacaran, sevgisi yarımçıq, ömrü yarımçıq Müşfiq... Heç Dilbərindən doymayan, sevgilisinə illərini verə bilməyən Müşfiq... Dünyanın ən gözəl ətrini-övlad ətrini çiyərlərinə çəkib gözlərini yumaraq nəfəsini buraxdığı an qədər onun sahibi olan, gözlərini açdığı an əllərindən axıb gedən bala həsrətli Müşfiq...

### Ömrün 5 iyunu...

İl dolana, iyun gələ...Necə anmayasan bu şairi ki, iyunlu günlər qısa ömrünün tarixçəsində xronika təşkil edir. İyun gələ, necə anmayasan Mikayıl Müşfiqi ki, 114 il əvvəlki iyunun 5-də dünyaya göz açmışdır. Cəmi bir qərinəyə yaxın ömrünün silinməz izlərini bu xalqın ədəbiyyat tarixinə möhürləmişdir. ən gözəl təbiət, sevgi nəğmələrini bizə qoyub getmişdir. O nəğmələr ki, o gün bu gün milyonlarla gəncin sevgi nəğmələridir. Məktublarda, ismarıclarda sevgi mesajlarıdır. Yəni sevənin sevgiyinə sevgisini o şeirlərdən gözəl anladanı varmı? Çünki o şeirlər bütün gənclərin sevdiyi yaşda yazılmışdı. Çılğınlıqla, sevginin gözlərini yumub, qəlbin gözlərini açmaqla, yalnız bu gözlərin gördüyü, hiss etdiyi duyğularla yazılmışdı:

Göy üzünə bircə bax, hər ulduz bir sarı gül,
Yarı qönçə, yarı gül.
Səni gördüm, xəyalım o qədər yüksəldi ki,
Mənə öylə gəldi ki,
Bizə bu nazlı aləm görünərdi qaranlıq,
Gözəl çarpışmasaydıq, gözəl yaşamasaydıq.

Axı sevdiyi insanın hər anı xoş gəlir insana. Düşünürsən ki, o gülüş, o yeriş, o cizgilər ondan başqa heç kimdə belə gözəl deyildir. Elə Müşfiq də belə düşünüb, belə yazırdı:

Sənin gülüşlərin bir ruzgar kimi
Əsərkən arzumun gülü açılır.
Gülsə dodaqların ulduzlar kimi
Ruhuma bir sərin işıq saçılır.

Sevgi oxşayır sevənin ruhunu, alır onu özündən, yerdəmi, göydəmi olduğunu hiss etmir. Bəzən araya inciklik düşər, sevənə bu an rüzgar kimi gələr, bəzən ayrılıq düşər, sevənə bu qar kimi gələr, lakin bütün bunların fövqündə dəruni bir hiss var, adı sevməkdir. Uzaqları yaxın, incikliklәri şirin edən, hər halı ilə sevgini dərinləşdirən, qəlbi dindirən sevgi. Müşfiqin sevgisi:

Sevgi vardır ki, dodaqlarda açar gülləri-ni,
Sevgi vardır ki, bir az qar kimi, rüzgar kimidir.
Sevgi vardır oxudur qəlbdə bülbülləri-ni,
Böylə bir sevgi mənim ruhumu oxşar kimidir.

Günlərin bir günü sevdaya düşəndə necə Müşfiqi anmayasan?

Mən ki, bilməz idim nədir məhəbbət.
Bu sirri sən mənə anlatmadınmı?
Dünyaya sığmayan şair könlümü
Köksümdən çıxarıb oynatmadınmı?

Və milyonlarla gəncin verdiyi qərar da elə şairin verdiyi qərar kimi olur:

Mehriban sevgilim qarşımda durdu,
Yenə şairliyim başıma vurdu,
Məndən məcnun könül maraqla sordu:
-Bu saçı leyladan necə əl çəkim?

İyun gələ, necə anmayasan şairi ki, açıq pəncərələrdən bayıra süzülən tarın nəğməsidir o. Bir tarın susmasıyla bir xalqın susmamasına, hüriyyətinə çağırış səsidir:

Oxu, tar!..
Utanma, oxu, tar!
Mədənli Bakımın,
Pambıqlı Gəncəmin,
İpəkli Şəkinin
Acısı, şərbəti,
Alovlu sənəti!

İyun gələ, bağ vaxtı ola, necə anmayasan şairi ki:

Yenə o bağ olaydı, yenə yığışaraq siz,
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim.
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,
Yazaydım səhər-axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?-, deyirdi, hisslərini, duyğularını misralara köçürməklə yaşayırdı.

### Ömrün 4 iyunu

Müşfiq haqqında çox əsərlər, monoqrafiyalar, məqalələr yazılıb. Həyatı, fəaliyyəti ayrı-ayrılıqda təhlil olunub. Araşdırmalar aparılıb, ailəsi, həyat yoldaşı, dostları, düşmənləri üzə çıxarılıb və bunların hər biri barədə də dəfələrlə oxumuşuq. Ona görə də bu yazını şairdən 84 illik ayrılıq kəsiyində onun həyatındakı iyunlar üzərində qurmağa çalışdım. Çünki şairlə bağlı diqqətimi çəkən ən çox bu iyunlar oldu. Bir anlığa bir alın yazısı qarşısında düşüncələrə daldım. Bir insanın dünyaya gəlişi də, paxıllığın qurbanı olması da, dünyaya gözlərini yummasına gedən yol -hamısı eyni ayamı yazılıbmış?..

ARAYIŞ. NKVD-nin 27 may 1937-ci ildə təhlükəsizlik kapitanı Çinmanın tərtib etdiyi arayışda qeyd olunmuşdu: "Mikayıl Müşfiq hal-hazırda "Müsavat" gənclər təşkilatı ilə əlaqə saxlayıb, partiya və hökumətin ünvanına böhtanlar deməkdən çəkinmir" .

Bundan əlavə arayışda Müşfiqin "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" kimi qızışdırıcı sözləri ilə xalqın arasında narazılıq yaratmaq istəyi iddia olunurdu. Həbs olunmuş müttəhimlərin "könüllü" surətdə yazdığı izahatlar da nəzərə alınmış və müstəntiq tərəfindən hazırlanan həmin arayışa əsasən Mikayıl Müşfiqin adına iyunun 3-də 508 nömrəli order yazılmış, cümə günü, iyun ayının 4-də isə evində həbs edilmişdi.

Hüseyn Cavid, Əhməd Cavadla eyni fikirli, eyni ruhlu gənc şair, bəli, Azərbaycanın hüriyyəti, azadlığı üçün mübarizə aparanlardan idi. Üsyankar şair "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" sözlərini demişdi. Stalini, Lenini, sovet quruluşunu mədh edən əsərlər də yazmışdı. Lakin bu əsərlər sadəcə gözdən pərdə asıb arxasında xalqının istəklərini həyata keçirmək üçün Müşfiqin həmin quruluşa nifrətinin məhsulları idi. Bütün bunlar isə kənardan açıqca görünürdü. Və şairin ətrafındakı paxılların satqınlığı onun gənc ömrünün baharını qışa çevirməkdəydi. Özünün də dediyi kimi:

Mən gəncəm bilirəm istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var.
Yelkənim açılır, qara yel əsmə,
Mənim bu dəryada bir sandalım var!

Bir külək əsirdi şairə sarı. Qorxulu bir külək. Qoparıb onu elindən, Dilbərindən, qələmindən, dostundan aparmaq istəyirdi. Apardı da. Şairin "Küləklər"i kimi:

Bəziniz qorxulu, bəziniz qorxusuz,
Bəziniz duyğulu, bəziniz duyğusuz,
Bəziniz uyqulu, bəziniz uyqusuz,
Küləklər, küləklər, ey sərin küləklər,
Sizdə var qoxusu hər yerin, küləklər!

Yeni bir 5 iyun-şairin son doğum günü

1937-ci il iyunun 5-də şairin 29-cu doğum günündə ilk istintaq keçirilir. Bu, şairin son doğum günü olur. Günahsızlar kürsüsündə müttəhim kimi doğum gününü qarşılayan şairin. Və 5 iyun istintaqı özündən sonrakı bir neçə istintaqla şairi 30 yaşa çatdırmayacaq bir nöqtəni qoyacaqdı. Müşfiqin nakam ömrünün nöqtəsini. Bu nöqtə repressiyanın yüzlərlə qurbanı üçün qoyulsa da, həm də ədalətsizliyə xitam nöqtəsi idi. Odur ki, bu dünyanın Müşfiq kimi ədalətli insanları hər zaman özünün də yazdığı kimi gözəl xatırlanacaqlar:

Məni gözəl xatırla,
Bunlar son misralar
Fərz et ki, bir külək idim, əsib keçdim həyatından
Ya da bir yağmur, sel oldum çöllərdə
Sonra torpaq çəkdi suyu canına
Yox olub getdim, bəlkə röya idim sənin-çün
Oyandın ve mən bitdim.

Lakin bir müşfiqsevər kimi ondan söz düşəndə də, iyun ayı gələndə də şairi ən dərуni hisslərlə xatırlasam da, bir də onu öz-özümə pıçıldayıram ki, sənsiz nə o bağ, nə o tar, nə o Dilbər, Müşfiq...

***Mətanət MƏMMƏDOVA***

# “Ermənistan hakimiyyəti baş verənlərdən özü üçün dərs götürdü”

***“Aprel ayının sonlarından başlayaraq Ermənistanda xarici dairələr tərəfindən xüsusilə də, Şimal qonşumuz tərəfindən dəstəklənən mövcud hakimiyyətə qarşı etiraz aksiyaları tədricən səngiməyə doğru gedir. Çünki aksiyalar başlayarkən də bəyan etdiyimiz kimi, aksiyaların məqsədi heç də Ermənistanda mövcud hakimiyyəti devirmək deyildi. Ermənistanla Azərbaycan arasında birbaşa ünsiyyətə meyilli olan mövcud hakimiyyətə təzyiqlər etməklə bu ünsiyyətin, formatın sıxışdırılıb sıradan çıxarılmasına hədəf götürmüşdür". Bunu SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.***

Onun sözlərinə görə, rəsmi Kremlin Ermənistan hakimiyyətinə təzyiq etməklə əldə etmək istədiyi nəticələrə böyük mənada nail olundu. Çünki bildiyiniz kimi, aprel ayının 6-da Brüsseldə keçirilən üç tərəfli görüşdə sonra Ermənistanın üzərinə kifayət qədər ciddi öhdəliklər qoyulmuşdur. Bu öhdəliklər üzrə Ermənistan bəzi zəruri praktik addımlar atmaq məcburiyyətində idi. Xüsusilə də, Ermənistan və Azərbaycan arasında birbaşa əlaqələri özündə əks etdirən sərhədlərin delmitasiyası ilə bağlı işçi qrupunun və ilk görüşün keçirilməsi razılaşdırılmışdı. Məhz həmin təxribatlar fonunda Ermənistan hakimiyyəti belə kardinal gedişlər etməkdən çəkindi. Nəticə etibarı ilə may ayının 22-də yenidən Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən görüşə qədər demək olar ki, Ermənistan - Azərbaycan arasında münasibətlərin tənzimlənməsində irəliliyə ciddi bir nəticə əldə olunmadı”.

A.Əliyev bildirdi ki, Rusiya Ermənistandakı əlaltıları olan Köçaryan və Sarkiyanın tərəfdarlarını aktivləşdirməklə mövcud hakimiyyətə təzyiqlər etmək və onu əlinin altında saxlamaq və Azərbaycanla birbaşa əlaqələrdən çəkindirməyə nail olmaq istəyirdi ki, göründüyü kimi buna nail ola bildi. Bundan sonra Rusiyanın qarşıya qoyduğu əsas hədəflərə nail olduqdan sonra Ermənistanda hakimiyyət dəyişikliyi marağı olmadığı üçün aksiyaların sakitləşdirilməsi ilə bağlı xüsusilə də aksiya iştirakçılarının cəzalandırılıb onların dağılmasına cəza verildiyi görüntüsü formalaşdı. Ermənistanda polis aksiya iştirakçılarına aktiv müdaxilə etməyə və onları dağıtmağa başladı. Bütün bunlar onu göstərir ki, Rusiya Cənubi Qafqazda baş verən prosesləri xüsusilə də ,Qərb dairələrinin güclərinin nəzarəti altında Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi ilə Rusiya bu bölgədəki proseslərdə iştirakçılığına olan ehtiyacı aradan





qaldırmaq planlarının qarşısını almağa çalışır. Rusiya bütün vasitələrdən istifadə etməklə Cənubi Qafqazdakı proseslərdə özünün iştirakçılığını qoruyub saxlamağa çalışır”.

A.Əliyev onu da qeyd etdi ki, Ermənistanda müxtəlif riçaqları işə salmaqla xüsusilə də, hərbiçiləri bu proseslərə cəlb etməklə Ermənistanda hakimiyyət dəyişikliyinə nail olmaq mümkün idi: ”Amma bu real riçaqlardan, alətlərdən istifadə olunmaması yalnız az sayda revanşist qüvvələrin etiraz aksiyalarının keçirilməsi hakimiyyət dəyişikliyi deyil, hakimiyyəti təzyiq altında saxlama məqsədi güdüldüyünü bir daha təsdiq etmiş oldu. Ermənistan hakimiyyəti baş verənlərdən növbəti dəfə özü üçün dərs götürdü və bundan sonra Azərbaycanla Ermənistan arasında birbaşa ünsiyyətin qurulması istiqamətində təəssüf ki, müəyyən problemlərin özünü göstərəcəyini proqnozlaşdırmaq mümkündür. Təəssüf ki, Rusiya heç də Ermənistanla Azərbaycan arasında münasibətlərin tam tənzimlənməsi və əldə olunmuş sülhün möhkəmliyinin qorunub saxlanılmasında o qədər də maraqlı deyil. Nə qədər ki, Rusiya güclüdür və Cənubi Qafqazdakı proseslərə təsir etmək imkanındadır, xüsusilə də Ermənistandakı alətlərinin vasitəsi ilə prosesləri gərginləşdirmək və prosesləri öz axarından çıxarmaq gücündədir Ermənistanla Azərbaycan arasında birbaşa ünsiyyətin qurulması və davamlı sülhün əldə olunmasında ciddi problemlər özünü göstərəcəkdir”.

**_Gülyana_**

## Matviyçuk deyir ki, guya Ukrayna ordusu dağılacaq...



***Yaxın gələcəkdə Ukrayna ordusu özünü müdafiə edə bilməyəcək və Donetsk istehkam ərazisinin yıxılması onun üçün ölümcül olacaq. SİA xəbər verir ki, bunu "360" telekanalı hərbi ekspert Anatoli Matviyçuka istinadən bildirib. Onun sözlərinə görə, guya Rusiya Silahlı Qüvvələri tərəfindən tamamilə məhv edildiyindən, bu gün Ukrayna Silahlı Qüvvələrində demək olar ki, aviasiya yoxdur.***

Matviyçukun dediyinə görə, hərbi əməliyyatlar başlayandan bir müddət sonra Kiyevin sərəncamında olan 10- 15 təyyarə və 20 -25 helikopter Rumıniya aerodromlarına köçürüldü. İndi isə oradan "başlarını qaldıra bilmirlər, bilirlər başlarını qaldırsalar vurulacaqlar".

Maraqlıdır ki, Matviyçuk, həmçinin Kiyevə verilən ”HIMARS” da daxil olmaqla, Amerikanın çoxsaylı buraxılış raket sistemlərinin və digər silahların mümkün tədarükünə də münasibət bildirib.

Onun sözlərinə görə, bu komplekslərin çoxsaylı buraxılış raket sistemləri ilə yanaşı, raket sistemi də var. Yəni 300 km-ə qədər atəş məsafəsinə malik taktiki raketləri buraxa bilir. Əgər ABŞ həqiqətən də onları çatdırarsa və Ukrayna bu uzaqmənzilli silahı Kurska hücumlar üçün istifadə etmək qərarına gəlsə, onda bizim əlimiz açılacaq. Matviyçukun fikrincə, guya Vaşinqton bunu başa düşür və ona görə də onlar bu sistemi göndərərkən çox diqqətli olacaqlar.

**_Ağasəf Babayev_**

# “Münasibətlər Şuşa Bəyannaməsi ilə rəsmən müttəfiqlik zirvəsinə ucaldı”



***“Azərbaycan və Türkiyə arasında olan münasibətlər tarixi Şuşa Bəyannaməsi ilə rəsmən müttəfiqlik zirvəsinə ucaldı". Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib. Onun sözlərinə görə, bu müttəfiqlik hər yerdə - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində özünü göstərir: "Ölkələrimiz arasında olan münasibətlər bundan sonra yüksələn xətlə ancaq irəliyə doğru gedəcək.***

Artıq Azərbaycan və Türkiyə beynəlxalq güc mərkəzləridir. Türkiyənin artan gücü Azərbaycanı gücləndirir və hər iki ölkə birbirinə güc qataraq dünya miqyasında güc mərkəzinə çevrilir. Azərbaycan müstəqil dövlətdir və müstəqil siyasət yürüdür. Təbii ki, müttəfiqlərini də özü seçir. Cənab Prezident İlham Əliyevin özünün də qeyd etdiyi kimi Azərbaycan xalqının və dövlətinin milli maraqları müdafiə olunmalı və Azərbaycan hər zaman müstəqil siyasət aparmalıdır. Göründüyü kimi bu, dövlət siyasətinin mütləq prioritetləridir".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, mayın 28-də Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" aerokosmik və texnologiya festivalı Azərbaycan və Türkiyə birliyinin, qardaşlığının növbəti əyani təcəssümüdür: ""TEKNOFEST Azərbaycan" festivalında çıxış edərkən ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan-Türkiyə qardaşlığından bəhs edərək ölkələrimizin hər zaman, istər yaxşı günlərdə, istərsə də çətin günlərdə bir-birinin yanında olduğunu qeyd etdi. Cənab Prezident İlham Əliyev çıxışında Türkiyənin İkinci Qarabağ müharibəsi zamanı ölkəmizə göstərdiyi yüksək mənəvi və siyasi dəstəkdən danışaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözlərini bir daha xatırlatdı. Təbii ki, qardaş Türkiyə Respublikasının Prezidentinin bu sözləri xalqımız, ölkəmiz üçün əlavə güc mənbəyi oldu. Azərbaycan xalqı heç zaman bunu unutmayacaq. "TEKNOFEST Azərbaycan" aerokosmik və texnologiya festivalında çıxışı zamanı Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyaşöhrətli alim, Nobel mükafatı laureatı Əziz Səncər və "TEKNOFEST"in təşkilatçısı, İkinci Qarabağ savaşında öz sözünü demiş məşhur "Bayraktar" PUA-ların ixtiraçısı Selçuk Bayraktarın Azərbaycana bir arada təşrif buyurmalarını əlamətdar hadisə olaraq qiymətləndirdi. Əziz Səncər və Selçuk Bayraktarı gənclər üçün gözəl örnək, nümunə olaraq göstərən ölkə başçısı yetişən gənc nəslin bu şəxslər kimi vətənpərvər olmağa çalışacağına öz əminliyini də bildirdi.

"TEKNOFEST Azərbaycan" festivalında çıxış edən Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə birliyinin tarixinə diqqət çəkərək 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində xalqlarımızın ortaq mübarizəmizdə bərabər olmasından bəhs etdi. Hər iki dövlətin xalqları tarixi, mədəniyyəti və mədəni dəyərləri ilə seçilən böyük bir millətin övladlarıdır. Azərbaycan və Türkiyə kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlət, iki xalqdır.

Qarabağ Zəfəri millətimizin qəhrəmanlıq dastanlarının ən son örnəyidir, deyə vurğulayan cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan Silahlı Qüvvələrinin igid mənsublarının Qarabağda tarixdə bənzərinə az rast gəlinən böyük bir Zəfərə imza atdıqlarına diqqət çəkdi.

Qardaş ölkənin başçısı Şuşa Bəyannaməsinin əhəmiyyətindən danışaraq bir sıra önəmli mesajlar da verdi. Müharibədə olduğu kimi, sülh dönəmində də Türkiyə qardaş Azərbaycanın yanındadır. Regionda sülh və dayanıqlı sabitliyin təmin olunması üçün Türkiyə fəal şəkildə dəstək göstərəcəkdir. Bölgədə yeni bir səhifə açmağın vaxtı çatıb. Hədəf dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgədə sabitliyin möhkəmləndirilməsidir".

***Arzu Qurbanlı***

# Kar
## FELYETON



Mətanət MƏMMƏDOVA

Allah uzaq eləsin, kar olmaqdan. Anadangəlmə və yaxud həyatda qazanılmasından asılı olmayaraq karlıq böyük fiziki qüsurdur. İnsan övladının heç istəmədiyi, hər zaman bu qüsurdan utanc hiss etdiyi çatışmazlıqdır. Bu qüsur anadangəlmə olanda insan buna birtəhər alışır. Çünki gözünü açandan bu çatışmazlıq olur, onunla böyüyür, ona çox da elə qəribə gəlmir. Lakin bu fiziki qüsur sonradan qazanılanda insan ikiqat narahat həyat keçirir. Məsələn, kar insanlara məxsus bir xüsusiyyət var, onlar ucadan danışırlar. Belə hesab edirlər ki, ətrafdakı insanlar onları eşitmir. Ancaq əslində bunun ətrafdakılara heç bir dəxli yoxdur. Onlar normal dərəcədə danışılan söhbətləri eşidirlər. Arada pis vəziyyətdə qalan bu fiziki qüsurlu insan olur.Çünki ətrafdakı insanların hamısına maraqlı gəlir ki, İlahi, bu görəsən niyə çığırır. "Niyə çığırırsan",- deyə soruşanda isə yeqin ki, utanır.

Yenə də Allah uzaq eləsin, son zamanlar bilmirəm havadandır, sudandır, ya qidalarımızdandır, karlaşma kütləvi şəkildə baş alıb gedir. İnanın ki, xərçəng xəstəliyi qədər yayılıb. Adamın ürəyi yanır, baxırsan ki, əsasən gənc insanlardır, bu dərdə mübtəla olublar. Elə xərçəng kimi, bu qüsur da cavan, qoca tanımır, kimi harada gəldi yaxalayır,vallah. Amma cavanlaşma daha çoxdur. Bəlkə də söhbətim qəribənizə gəlir. Amma gözümlə görüb, qulağımla eşitməsəydim, mən də sizlər kimi bu mövzuda söhbətə məəttəl qalardım.

Son zamanlar bu cür qüsuru yaşayan insanlarla bağlı qarşılaşdığın mənzərələr haqqında danışım, siz də qulaq asın. Məsələn, oturmusan iş yerində-otaqda. Birdən hiss edirsən ki, başına musiqili bir zərbə enir. Bu səs haradan gəlir, ora çönürsən, bura çönürsən, haradan gələcək, bayırdan. Maşınlar bir-bir pəncərənin altından keçdikcə musiqilər də dəyişir. Yəni otaqda oturanların hər birinin zövqünə uyğun. Ta bir gün ərzində o janrda musiqi qalmır ki, dinləməyəsən. "Nəyi pisdir ki, əslində bunun?İnsanın beyni təzələnər də",- deyərsiniz. Bəli, elədir, lakin səsi bir qədər alçaqdan olsa, hə siz deyəndir. Amma mən musiqili zərbədən danışıram axı: gup, gup, gup...

Nə deyim bu yaya, yenə gəldi çıxdı. Yenə pəncərələr bağlı olanda bu musiqili zərbə idi ey. Elə ki, pəncərələri istidən açmaq məcburiyyətində qalırsan, musiqili müharibə başlayır. Elə bir üstünə artilleriya yeriyir, sadəcə bu artılleriya musiqili artilleriyadır.

Həmçinin də küçədə. Sakitcə yol ilə getdiyin yerdə elə bir musiqili bir silahla sənə atəş açırlar. İnanın, inanın da deyirəm, bəlkə hələ rastlaşanlar da olub, qorxub bir tərəfə çəkilirsən ki, gələn bu təhlükədən özünü müdafiə edəsən. Elə hiss edirsən ki, maşın bu dəqiqə partlayacaq, parçaları üstünə töküləcək.

Vallah, sözün həqiqi mənasında, adam ürək ağrısı yaşayır. İnsanlar axı nə üçün kütləvi şəkildə bu fiziki qüsura məruz qalırlar. Görəsən hansısa genetik modifikasiya olunmuş məhsulun təsiridirmi, yoxsa mənəvi modifikasiyadır, nədirsə, karlaşma gündən-günə çoxalır. Axı yuxarıda da dedim, kar insanlar elə bilirlər ki, ətrafda onları eşitmirlər. ona görə də ucadan danışırlar. Elə maşınlardan çıxan bu musiqi səsləri yox, musiqili zərbələr də maşındakı kar insanın düşüncəsindən doğur. Vallah kar olmayasan, belə səsli maşında əyləşəsən, adamın başına hava gələr. Hələ bəzən həmin maşınların içərisi dolu da olur gənclərlə. Düşünürsən ki, vay, bax, bu yazıqların hamısı fiziki qüsur qazananlardır. Amma bir məsələyə tamamilə əminəm ki, bələləri anadangəlmə kar deyillər, bu qüsuru sonradan, yenə deyirəm hansı səbəbdənsə qazananlardır. Allah, özü köməkləri olsun.

# Medvedevdən xəbərdarlıq...

***Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev Kiyevin Rusiya ərazilərinə hücum üçün ABŞ-dan aldığı silahlardan istifadə edərsə, Rusiya Ukraynadakı qərar qəbuletmə mərkəzlərinə zərbə endirəcəyini bildirib.***

SİA-nın əldə etdiyi məlumata görə, o, bu barədə "Əl-Cəzirə" telekanalına müsahibəsində bildirib. (...maraqlıdır ki, "Əl-Cəzirə"nin əməkdaşı, bəs, belə olan halda Ukraynanın bu salahları ABŞ-dan niyə aldığını sual kimi ona ünvanlamayıb-A.B.)

"...Əgər bu növ silahlardan Rusiya ərazilərinə qarşı istifadə olunarsa, bu halda ölkəmizin silahlı qüvvələrinin Ukraynanın qərar qəbuletmə mərkəzlərini məhv etmək üçün hərəkətə keçməkdən başqa yolu qalmayacaq", - deyə Medvedev bildirib.

Maraqlıdır ki, sədr müavini vuracaqları hədəfləri də sadalayıb. Bunlar Ukraynanın Müdafiə Nazirliyi və Silahlı Qüvvələrinin Baş Qərargahıdır. (...yenə də maraqlıdır, bir halda ki, ruslar bu obyektləri vura bilirlərsə, niyə indiyə qədər vurmayıblar?- A.B.)

"Ancaq başa düşmək lazımdır ki, bu halda yekun qərar qəbuletmə mərkəzləri, təəssüf ki, hətta Kiyevin ərazisində də yerləşmir. Ona görə də bu, şübhəsiz ki, nəzərə alınmalı olan təhlükədir". - baxın, Medvedev xəbərdarlıq da edib.

***Ağasəf Babayev***



# Dövlət proqramı vasitəsilə xaricdə təhsil üçün kimlərə üstünlük veriləcək?



“Bakalavr səviyyəsi üzrə xaricdə təhsil dövlət proqramından beynəlxalq olimpiadada qaliblərinin yararlanmasına üstünlük veriləcək. Bu da Nazirlər Kabinetinin təsdiqlədiyi xüsusi siyahı ilə müəyyənləşəcək". SİA xəbər verir ki, bunu Təhsil Nazirliyinin Xaricdə təhsil və ecnəbi tələbələrlə iş sektorunun müdiri Müjdət Həsənov "Təhsil masası"nda deyib. Şöbə müdiri bildirib ki, onlar müsahibədənkənar təhsil almaq hüququ əldə edəcəklər.

# Laçın dəhlizində RSK "nəzarəti", yoxsa erməni özbaşınalığı?

*Bakı gözləyir və bu gözləntilərin demək olar ki, həddi bitmək üzrədir!*



***2020-ci ilin noyabr ayında imzalanmış və hüquqi olaraq Ermənistanın Qarabağdakı 44 günlük müharibədə məğlubiyyətini rəsmiləşdirən razılaşmadan iki ilə yaxın vaxt keçir. Lakin indiyədək üçtərəfli bəyanatın bir sıra müddəaları həm ermənilər tərəfindən, həm də Rusiya sülhməramlılarının (RSK) etinasızlığı səbəbindən sabotaj edilməkdə davam edir.***







Digər tərəfdən, Zəngəzur dəhlizi məsələsində Bakının hərbi-diplomatik təzyiqindən sonra müəyyən irəliləyişlər, yəni mövqe müəyyənləşdirilmələri əldə edilsə də, razılaşmada qanunsuz erməni silahlı birləşmələrinin qalıqlarının çıxarılmasını nəzərdə tutan dördüncü bəndinə əməl edilməməsi faktı da aktual olaraq qalmaqdadır.

Laçın dəhlizinə gəldikdə isə Ermənistandan gələn mülki geyimli müqaviləli əsgərlərdən, əslində isə terrorçulardan tutmuş Fransada prezidentliyə namizədlərin, siyasətçilərin oradan keçməsinə, eləcə də bu ilin iyunun 1-də xristian terror təşkilatı kimi tanınan -"SOS - Şərqin Xristianları" ("SOS - Chr?tiens d'Orient") "ictimai təşkilatı" üzvlərinin separatçıların quldur başçısı Araik Arutyunyanla görüşməsinə qədər bütün faktlar göz önündədir.

### Rusiya tərəfi Monitorinq Mərkəzinin Bərdədə yerləşdirilməsini təklif etsə də, məhz Azərbaycanın təkidi ilə mərkəzin Ağdam şəhərində açılması qərarı verildi!

Daha bir diqqət çəkən budur ki, üçtərəfli razılaşmadan sonra Qarabağda Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də fəaliyyət göstərir. Məhz 2020-ci il noyabrın 10-da Rusiyanın dövlət başçısı Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş Naziri Nikol Paşinyan Qarabağda hərbi əməliyyatların tamamilə dayandırılması barədə ortaq bəyanat imzaladıqdan sonra həmin bəyanatda bölgədə atəşkəsi təmin etmək üçün sülhməramlıların da yerləşdirilməsi nəzərdə tutulurdu.

Həmin ilin noyabrın 11-də isə Rusiya və Türkiyə müdafiə nazirləri Azərbaycanda Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi (RTBMM) yaratmaq üçün anlaşma memorandumu imzaladılar. O cümlədən, Rusiya tərəfi Monitorinq Mərkəzinin Qarabağdan kənarda - Bərdədə yerləşdirilməsini təklif etsə də, məhz Azərbaycanın təkidi ilə mərkəzin Ağdam şəhərində açılması qərarı verildi. 2021-ci il yanvar ayının 30-da Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi fəaliyyət göstərməyə başladı.



Lakin təəssüf ki, bu günə qədər Laçın dəhlizində qeydə alınan hər bir qanunsuzluq Rusiya sülhməramlıları tərəfindən nəinki ciddiyyətə alınmır, hətta sonrakı vaxtlarda, yəni son günlərədək daha ciddi problemlərin yaşanmasına belə etina göstərmir.

Fakt budur ki, RSK-nın hazırkı dövrə qədər buraxdığı ciddi səhvləri ilə yanaşı, bu gün onların burunlarının altından Xankəndiyə barələrində Fransada cinayət işi açılmış terrorçular keçib-getməkdədirlər. Daha bir sual isə budur - Ağdamdakı monitorinq mərkəzindəki RSK "missionerləri" hadisələri niyə qeydə almır? Yəqin ki, belə davam edərsə Azərbaycanın və qardaş Türkiyənin bu ətrafdakı sərt mövqelərini də müşahidə edə biləcəyik!

### Qanunsuzluqlar sonradan qarşı tərəf(lər)ə fakt kimi göstəriləcək




Artıq bütün dünya bilir və dərk edir ki, bu gün Azərbaycan dövlətinin Cənubi Qafqaz regionunda sülhün və inkişafın bərqərar olması üçün apardığı əhəmiyyətli işlərini məhz ermənilər və onların havadarları pozur, yaxud pozmağa cəhdlər göstərirlər.



Ermənistanın hər danışıqlardan sonrakı sərsəm bəyanatlarından başlayaraq Qarabağdakı separatçıların RSK-nın arxasından səngərlər qazmalarının, dayaq nöqtələri qurmalarının, "liderlərinin" isə həyasız fikirlər səsləndirmələrinin hər biri sülhün yaranmasına maneələr törədir.



O cümlədən, RSK-nın üzərinə götürdüyü vəzifələrini vicdanla yerinə yetirməməsi artıq bütün hədləri, əndazələri aşır. Söz yox ki, baş verənlər qeydə alınır və qeydə alınan hər qanunsuzluqlar sonradan qarşı tərəf(lər)ə fakt kimi göstəriləcək.

### Türkiyə Silahlı Qüvvələrinin də fəaliyyət göstərdiyi Ağdam Monitorinq Mərkəzində RSK-nın qanunsuzluqlara göz yumması faktları qeydə alınmaqdadır...



Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bu ətrafdakı mövzulara münasibətini bildirərkən öz qətiyyətli, sərt xəbərdarlıqlarını bəyan edib və belə xəbərdarlıqların əbədi olacağını düşünən ermənilər və onların havadarları kökündən yanılırlar.

Daha bir məqam budur ki, bu gün müttəfiqimiz - qardaş Türkiyə də hər zamankı kimi yanımızdadır. Və söz yox ki, Türkiyə Silahlı Qüvvələrinin də fəaliyyət göstərdiyi monitorinq mərkəzində RSK-nın qanunsuzluqlara göz yumması faktları qeydə alınmaqdadır. Sadəcə, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı təhdidlər davam edəcəksə, artıq onda istənilən qüvvənin qarşısı alınacaq və söz yox ki, Qarabağ regionunda sülhün və əminamanlığın, eləcə də inkişaf erasının başlanğıcı istiqamətində başladılan işlərin miqyası daha da böyüyəcək.

Bakı gözləyir və bu gözləntilərin demək olar ki, həddi bitmək üzrədir!

***Rövşən RƏSULOV***

**SİYASİ RAKURS+ÖZƏL**

*Rusiya-Ukrayna savaşının sonu görünmür. Bu müharibəyə çevrilmiş qarşıdurmanın səbəbləri nədir? Niyə Rusiya Ukraynanı əldən vermək istəmir? Dünya Ukraynanı müstəqil ölkə olaraq dəstəkləyir və BMT sənədlərində bu ölkənin konkret sərhədləri təsbit olunub. Rusiya isə artıq açıq şəkildə, hətta prezident Putinin dili ilə Ukraynanın heç vaxt müstəqil olmadığı bildirilir.*

# Açıla bilməyən Ukrayna düyünü




## Yaxud Zbiqnev Bjezinskinin "Ukrayna "NATO-ya qarışmamaq" siyasəti yürütməlidir" fikrinin arxasında dayanan sirr



ANALİZ

Bu barədə tanınmış siyasətçi, "Soyuq Müharibə" ideologiyasının banisi, ABŞ prezidentinin vaxtilə milli məsələlər üzrə müşaviri olmuş, ukrayna-polşa əsilli Zbiqnev Bjezinskinin 2000-ci ildən 2017-ci ilə qədər maraqlı fikirləri mətbuatda dərc edilib. Həmin məqalələrin analizini apararaq, xüsusən də Ukrayna ətrafında baş verən hadisələrə o dövrün pəncərəsindən baxaraq şərhini vermək istədik.

Qeyd edək ki, prezident Karterin milli təhlükəsizlik üzrə müşaviri Zbiqnev Bjezinski karyerası boyunca qəti şəkildə anti-sovet mövqeyində olub. Bununla belə, Bjezinskinin tez-tez birtərəfli və radikal kimi qəbul edilən güclü fikirlərinə baxmayaraq, onun düşüncəsi Vaşinqtonda və digər paytaxtlarda siyasətçilər nəslinə təsir etdi, çünki onun bir sıra qlobal çağırışlara necə yanaşmağa dair baxışı özünü doğruldurdu. Onun Andjey Lubovski tərəfindən yazılmış son tərcümeyi-halı Bzezinskinin ideyalarının maraqlı sintezidir və onların əksəriyyəti, xüsusən də Rusiya ilə bağlı dedikləri peyğəmbərlik səviyyəsindədir. Bjezinskinin yazdığı məqalələrdən Ukrayna və Rusiyaya birbaşa əlaqəsi olan bəzi fikirləri təqdim edirik:

Həqiqət budur ki, Ukrayna və Qərb Ukraynanı NATO-da görmək istəmədiklərini yazılı şəkildə təsdiq etsələr, bütün Rusiya-Ukrayna-Qərb qarşıdurması kökündən həll edilə bilər. Bu, Rusiya üçün əsas məsələdir. Razılıq yalnız yazılı şəkildə keçərlidir. Yaxın tarixdə də demək olar ki, oxşar hadisə baş vermişdi. Belə ki, Reyqan və Buş (ata) administrasiyası SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçova ABŞ-ın "Soyuq Müharibə" başa çatdıqdan sonra Sovet İttifaqından istifadə etməyəcəyi barədə quru söz verib sonradan siyasətini davam etdirməsi Moskva üçün bir dərs olub. Rusiya Artıq kağız üzərində pozula bilən, yaxud şifahi anlaşmalara etibar etmir.

Prezident Bill Klintonun üzdə özünü mələk kimi göstərib min bir təxribata əl atması, NATO-nun Rusiya sərhədlərinə qədər genişlənməsinə başlaması da Qərbin etibarını bir az da düşürüb. Qorbaçov çox məsum bir şəkildə soyuq müharibənin tamamilə bitdiyinə inanırdı və ABŞ-ın neqativ, yəni Rusiyanın maraqlarına zidd addım atmayacaq. Krım məsələsinə gəlincə Rusiya BMT-nin nəzarəti altında yeni referenduma razı olmalıdır. Amma deyə bildiyim qədəri ilə Rusiya ilə birlik krımlılar arasında çox müsbət qarşılanır. Ona görə də Qərbin bir qədər real siyasət yürütməsi lazımdır və Krımın Ukraynaya qaytarılması prosesini bir az ertələmək də pis olmaz.

Donbasa gəlincə, bu bölgədə əsasən rus kökənli Ukrayna vətəndaşları yaşayıb. Ukrayna müstəqillik əldə edəndən bəri anti-islahat, anti-Qərb, rusiyayönlü olub. Donbas Ukraynadan uzaqlaşmaq səyinin ağır bədəlini ödəyir - sənaye istehsalının 80%-i azalıb, kömür mədənləri, fabriklər, hava limanı və digər infrastrukturlara ciddi ziyan dəyib. İqtisadi cəhətdən sıxılmış Rusiya bunun yükünü necə daşısın, üstəlik, təqaüdləri, sosial təminatları, Ukraynadan gətirilməli olan su və elektrik enerjisini necə ödəsin?

ABŞ-ın mühüm strateji siyasi mütəfəkkirləri Qərbin Rusiyaya qarşı indiki siyasətinin qüsurlu olduğunu açıq şəkildə bəyan ediblər. "Soyuq Müharibə"nin qarşısının alınmasının memarı, mərhum Corc Kennan xəbərdarlıq edirdi ki, NATO-nun genişləndirilməsi "yeni bir soyuq müharibə ilə nəticələnəcək və yəqin ki, isti müharibə ilə bitəcək".

"Moskvada aşkar etdiyim kimi, mənim son səfərlərim zamanı nüvə müharibəsi doktrinaları nüvə silahı ilə necə məşğul olmaq təcrübəsi olmayan bir rejim tərəfindən yozulur. Putin son çıxışında dünyanı nüvə silahından istifadə etməklə hədələyib". ABŞ prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri Zbiqnev Bjezinski ölümündən bir müddət əvvəl demişdi ki, Finlandiyanın bütün soyuq müharibə illərində tətbiq etdiyi kimi, Ukrayna da "NATO-ya qarışmamaq" siyasətinə malik olmalıdır. Finlandiya özünü Qərbdən geosiyasi cəhətdən uzaq məsafədə saxladı, eyni zamanda ölkədə güclü demokratiya mühiti yaratdı və Qərblə yaxın iqtisadi əlaqələri yaratdı. Çünki, Rusiya SSRİ-nin dağılmasından sonra öz milli qürurunu bərməkdir? Məgər belə yanaşma ilə ədalətli olmaq imici yaratmaq mümkündürmü? Yəqin ki əksəriyyət buna yox cavabı verər. Böyük Britaniya digər dövlətdən daha çox xarici müharibələr aparıb. BMT Nizamnaməsinin standartlarına görə, bu müharibələrin əksəriyyəti qeyri-qanuni idi.

Gəlin Ukrayna haqqında düz danışaq ki, hərə öz yerində otursun, kimin haqlı, kimin haqsız olduğu ortaya çıxsın. Rusiyanın işğalı qanunsuz və qəddardır. Ancaq bir ümid işığı var. Ukrayna prezidenti Zelenski fevralın 24-də Putinlə Ukraynanın neytrallığı barədə bütün bu elementlər qlobal güc statusu üçün nostaljidən xəbər verirdi.

Maraqlıdır ki, Bjezinski 2008-ci ildə Rusiyanın Gürcüstana təcavüzündən sonra Putini Hitler və Staliné bənzədən ilk şəxslərdən biri idi. Onun fikrincə, bu aqressiya "Hitlerin Çexoslovakiyaya qarşı "SudetenDeutsch"u "azad etmək" taktikası" və "Stalinin nə olduğunu" xatırladır. Finlandiyaya qarşı atılan addımlar da bu qəbildəndir: qonşuluqda olan kiçik bir demokratik ölkənin suverenliyini güc tətbiq etməklə alt-üst etmək. Bjezinski iddia edirdi ki, Gürcüstana qarşı müharibə tək bir hadisə deyil. Tam ək-

pa etməyə çalışır. Bjezinski Ukraynanın yaratdığı çətin problemlərə baxmayaraq, gələcəyə nikbin baxırdı.

ABŞ-la SSRİ arasında uzun müddət davam edən "Soyuq Müharibə"nin ideoloqlarından biri, Amerikanın dövlət xadimi Henri Kissincer isə yazırdı ki, "Qərb başa düşməlidir ki, Rusiya üçün Ukrayna heç vaxt sadəcə yad ölkə ola bilməz. Rusiya tarixi Kiyev-Rus ilə dünyada tanınmağa başlayıb. Rus dini oradan yayılıb. Ukrayna əsrlər boyu Rusiyanın tərkibində olub. Rusiyanın Aralıq dənizindəki güc proyeksiyası - Qara dəniz donanması Ukraynanın uzunmüddətli razılaşması ilə Krımın Sevastopol şəhərində yerləşir.

Kissincer də birmənalı olaraq "Ukrayna NATO-ya üzv olmamalıdır" deyib. Hətta Aleksandr Soljenitsın və İosif Brodski kimi məşhur dissidentlər də Ukraynanın Rusiyanın ayrılmaz hissəsi olduğunu təkid edirdilər. Həqiqətən, Ukrayna 500 il idi Rusiyanın tərkibində idi. Müasir müstəqil dövlət kimi Ukraynanın ömrü cəmi 30 ildir.

ABŞ özü İraqa səbəbsiz hərbi təcavüz və oranı işğal etdiyi, iyirmi il Əfqanıstanda döyüşdüyü, İslam dünyasında yüzlərlə insansız hava aparatları vasitəsilə hücumu etdiyini, Serbiyanı qeyri-qanuni bombardman etdiyi halda beynəlxalq təcrübəni təbliğ etməyə necə cəsarət edə bilər? Üçüncü Dünya ölkələrində, məsələn Nikaraquada diktatorların dəstəklənməsi nə dedanışmaq istədiyini düşünürmüş. Əslində, bu, çox düzgün addım ola bilərdi. Amma nədənsə iki ölkə rəhbəri danışıq masası əvəzinə müharibə meydanını seçdilər.

Bir sözlə, Bjezinski hesab edirdi ki, Soyuq Müharibədə SSRİ-nin dağılması Rusiyanın avtomatik olaraq demokratik ölkəyə çevrilməsi demək deyil. Bu keçid avtomatik ola bilməzdi. Sovet İttifaqı ərazisində yaşayan bir çox xalq müstəqillik istəyirdi. Bunu təkcə Moskvada deyil, Vaşinqtonda da həzm etmək, bununla razılaşmaq çətin idi. Beləliklə, Rusiyada SSRİ-nin "şöhrətini" bərpa etmək məqsədi daşıyan revizionist millətçiliyin ilkin şərtləri var idi. Bundan əlavə, 1990-cı illərin əvvəllərində Bjezinski "Rusiyanı Avropa ilə möhkəm bağlayacaq siyasi və sosial-iqtisadi transformasiya üçün hər hansı hərtərəfli proqram" görmürdü. Hələ 1999-cu il oktyabrın 6-da Bjezinski Konqres qarşısında çıxış edərkən o, indiki Rusiyanın etibarlı, etibarlı tərəfdaş olmadığını əsaslandırırdı. Onun gəldiyi qənaət Rusiyanın Kosovo müharibəsindəki davranışına əsaslanırdı. O zaman Rusiyanın fikri belə idi ki, Serbiya və Kosovoda baş verənlər ABŞ-ın qlobal imperiyasının dağılmasıdır. Moskva NATO-nun səlahiyyətlərini parçalamağa, iyrənc Slobodan Miloseviçə (sonradan Haaqada məhkəməni gözləyərkən vəfat edib) dəstək verməyə, Priştinada rus bölməsi yaratmaq üçün 2500 paraşütçü uçurmağa və s. -

sinə, Putin imperiyanı bərpa etmək üçün millətçi mövqeyini sınaqdan çıxarırdı. 2008-ci ilin avqustunda Bjezinski "iqtisadi və maliyyə sanksiyalarına səbəb ola biləcək Rusiyanın işğalına qarşı çıxmaq və onu qınamaq üçün birgə, qlobal səylərə" çağırırdı. Təəssüf ki, bu cəhd "Ağ Evdə Putin və onun rejimi ilə bağlı özünü aldatma" səbəbindən baş tutmadı. O, bu aldanışın iki yaddaqalan təzahürünü qeyd edir: Birincisi, Buş Putinlə görüşəndə və ona güvənə biləcəyini söylədikdə, ikincisi, Kondaliza Rays Amerikanın Rusiya ilə münasibətləri tarixdə heç vaxt yaxşı olmadığını iddia etdikdə!

Və Bjezinskinin proqnozlarına uyğun olaraq, tendensiya davam etdi. 2009-cu ildə Rusiya Ukrayna ilə qaz qiymətləri ilə bağlı mübahisə etdi və hamını Ukraynanın etibarlı olmadığına inandırmaq üçün Qərbə qaz tədarükünü kəsdi. Putin NATO-dakı bədnam çıxışında Ukraynanın süni dövlət olduğunu iddia edərək, Ukraynanın NATO-nun bir hissəsi olacağı təqdirdə Rusiyanın Ukraynanı işğal edəcəyinə eyham vurdu. NATO Ukraynanı qəbul etməsə də fərqi yoxdur. Nəhayət, Rusiya Ukraynanı işğal etdi, Krımı ilhaq etdi və Ukraynanın şərqində separatçılığı dəstəkləməkdən də uzağa gedib hər iki vilayəti dövlət olaraq tanıdı. Bununla da sonu görünməyən müharibəni alovlandırdı.

**V.VƏLİYEV**

# “Dəhliz Azərbaycanın Avropaya enerji ixrac etməsində mühüm rol oynayacaq”

***Trend Beynəlxalq İnformasiya Agentliyinin Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli SİA-ya müsahibə verib. Həmin müsahibəni təqdik edirik.***



***- Bildiyimiz kimi, ölkəmizdə enerji həftəsi keçirilir. Ölkə başçısı da Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində iştirak etdi və bir sıra önəmli mesajlar verdi. Ümumiyyətlə, bu tədbirin keçirilməsinin əhəmiyyəti nədən ibarətdir?***




- Əlbəttə ki, son dövrlərdə Azərbaycanda çox tarixi hadisələr baş verir. Keçən həftə biz Azərbaycan-Türkiyə qardaşlığının bir simvoluna çevrilmiş ”Teknofest” festivalının fəxrini yaşadıq. Bu həftə də əlbəttə ki, Azərbaycan çox böyük tədbirə ev sahibliyi etdi. Bildiyimiz kimi enerji həftəsi çərçivəsində dünyanın bir çox ölkələrindən Azərbaycanın tərəfdaşları, müxtəlif beynəlxalq, iqtisadi qurumların nümayəndələri həmin tədbirdə iştirak etdilər. Biz bununla bir daha bütün dünyaya sübut etdik ki, Azərbaycan dünyanın əvəzedilməz tərəfdaşıdır.

Bildiyimiz kimi, 90-cı illərin əvvəllərində Azərbaycanda çox mürəkkəb bir siyasi vəziyyət hökm sürürdü. Ölkəmiz uçurum qarşısında idi. Həmin dövrdə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev ilk növbədə Azərbaycanda ictimai-siyasi sabitliyi bərqərar etməyə başladı, silahlı qruplaşmalar ləğv olundu, cinayətkar dəstələr zərərsizləşdirildi. Azərbaycan inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli lider Heydər Əliyevin səyi nəticəsində Azərbaycan təbii ehtiyatlarını, enerji resurslarını, Xəzər dənizinin imkanlarını dünyaya açdı. Bu Azərbaycanın nüfuzunun bir göstəricisidir. Biz bu gün dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində əvəzedilməz gücə çevrilmişik.

***- Brüssel görüşündən sonra Ermənistanda aksiyalar keçirildi. Ermənistan tərəfindən sülhlə bağlı hər hansı bir fəallıq görmədik. Sizcə, bu nəyə yönəlikdir?***

- 44 günlük Vətən müharibəsindən sonra Ermənistanda bu aksiyalar, iğtişaşlar davam edir. Bu proses Ermənistan üçün heç də yaxşı vədlər vermir. Ermənistan cəmiyyətində bu gün böyük parçalanmalar var. Müəyyən revanşist qüvvələr xalqı yenidən öz tərəfinə çəkməyə başlayır. Əlbəttə ki, bütün bunların hamısı əbəs yerədir. Ermənistan cəmiyyəti də başa düşür ki, gələcək sülh və təhlükəsizlikdən asılıdır. Azərbaycan bölgənin təhlükəsizliyini təmin etməyi qarşısına tək məqsəd qoyub. Biz Ermənistana sülh təklif edirik. Amma Ermənistanın sülhə gedəcəyi sual altındadır. Bundan əvvəlki danışıqlarda Azərbaycanın irəli sürdüyü 5 bənddən ibarət olan razılığı Paşinyan qəbul edib. Amma sonrakı dövrlərdə Ermənistanın müəyyən məsələlərdə qeyri-konstruktiv mövqe saxladığını görürük. Danışıqlarda böyük irəliləyiş əldə etmək olar. Çünki biz sülh istəyirik.

***- Radikal müxalifət sanki qəfəsdən çıxmış kimi bir növ aksiyaları qızışdırmaqda maraqlıdır. Onlar Ermənistanda hökumət binalarına hücum edirlər. Onların bu əmlləri silahlı qarşıdurma ilə nəticələnə bilər?***

- Ermənistanda elə bir imkan yoxdur ki, ölkədə hər hansı bir qarşıdurma yaransın. Bu gün aksiya keçirənlər uzun illər Ermənistanı idarə edən quldur dəstələrinin qalıqlarıdır. Hakimiyyət qanunun imkan verdiyi çərçivədə həmin qüvvələrə öz yerini göstərməlidir. Çünki başqa çıxış yolu yoxdur.

***- Bildiyimiz kimi, hələ də Azərbaycan ilə Ermənistan arasında böyük sülh sazişi imzalanmayıb. Azərbaycan ilə Ermənistan arasında sülhün olacağına inamınız varmı?***

- Əlbəttə ki, Azərbaycan ilə Ermənistan arasında barışıq olmalıdır. Bu labüddür. Azərbaycan-Ermənistan sərhədində yenidən gərginlik müşahidə olunur. Ermənistan adlanan ərazidən Azərbaycanın sərhədləri atəşə tutulub. Bu cür revanşist mövqelər mövcuddur. Amma Azərbaycan bu təxribatların qarşısını yerindəcə alır. Bütün bunlara baxmayaraq biz sülhün tərəfdarıyıq.

***- Prezident İlham Əliyev Azərbycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınmayacağı təqdirdə ölkəmizin də analoji yanaşma ortaya qoyacağını vurğulayıb. Bu arqument Ermənistan üçün nə dərəcədə təsirli olacaq?***

- Cənab Prezidentin bu mesajı Ermənistan üçün çox ciddi xəbərdarlıqdır. Ərazi bütövlüyünün tanınmaması məsələsi o deməkdir ki, biz də öz tarixi torpaqlarımızla bağlı iddia qaldıra bilərik. Bildiyimiz kimi Ermənistan adlanan ərazi tarixi Azərbaycan ərazisidir. Amma biz bu gün bütün bunlara baxmayaraq sülh təklifi edirik. Amma Ermənistan təəssüf ki, Azərbaycanın irəli sürdüyü təkliflərə əməl etmək istəmir.

***- Sizcə, erməni tərəfi sülhün əldə edilməsinə, Azərbaycanla əlaqələrin qurulmasına, regionda ticarət yollarının açılmasına hazırdırmı?***

- Görünür Ermənistan bu bataqlıqdan çıxmaq istəmir. Əlbəttə ki, Ermənistan bəzi qüvvələrə güvənir. Bildiyimiz kimi Brüssel görüşündən sonra Ermənistan cəmiyyətində müxtəlif fikirlər səsləndirildi. Ermənistanın bu məsələlərdən boyun qaçırmasından asılı olmayaraq Azərbaycan dövləti qərarlıdır. Zəngəzur dəhlizi açılacaq. Çünki bu dəhliz bütün dünya üçün önəmlidir. Bu dəhliz eyni zamanda Azərbaycanın Avropaya enerji ixrac etməsində mühüm rol oynayacaq.

***Arzu Qurbanlı***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Qazilərlə dövlətin maraqları kəsişməməlidir: dövlət və qanun hamımızındır!

***Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyində baş verən məlum insidentdən çıxarılan nəticələr müxtəlif cür izah oluna bilər. Lakin fakt budur ki, Azərbaycan dövlətinin və rəhbərliyinin qazilərə, şəhid ailələrinə göstərdiyi davamlı diqqət və qayğısına rəğmən, istər yerlərdə fəaliyyət göstərən müvafiq strukturlarda, istərsə də qazilərimizlə həmin strukturlar arasında yaşanan arzuolunmaz olaylar kontekstində çıxarılan ilkin nəticə budur: hər iki tərəfdə müəyyən boşluqlar mövcuddur - birində operativsizlik, digərində isə təmkinsizlik. Və bu boşluqları doldurmaq isə, əslində, çətin iş də deyil.***

Başlayaq strukturlardan. Məlumdur ki, bilavasitə Azərbaycanın dövlət rəhbərliyinin irəli sürdüyü təşəbbüsləri və verilən sərəncamlar əsasında qazilərimizin əlillik dərəcələrinin müəyyən edilməsi, habelə onların sosial-məişət həyatlarının yüksək səviyyədə təmin olunması istiqamətində işlər bu gün də davam etdirilməkdədir. Bununla yanaşı, təsis edilən fondlar və s. təşkilatlar qazilərimizin daha keyfiyyətli müalicə kursları keçmələri, ictimai həyata sağlam şəkildə geri dönmələri, reabilitasiyaları üçün istər qardaş Türkiyənin, istərsə də digər ölkələrin ən aparıcı klinikaları ilə birgə fəaliyyət göstərir, həmin istiqamətdə tələb edilən işlərin realizəsini həyata keçirirlər. Etiraf edək ki, bu kimi proses heç də asan deyil və ilk növbədə vaxt, zaman tələb edir. Üstəlik, Qarabağ müharibəsi əlillərinin qeydiyyata alınaraq onlara təqaüdlərin verilməsi istiqamətində də müəyyən bir sıra işlər reallaşdırılır və belə olan vəziyytdə daha bir etiraf olunası hal budur ki, sözügedən prosesdə gecikmələr yaşanır. Amma...

Amma bizlərin hər birimizin başlarının tacı olan qazilərimiz, dəyərli oğullarımız da müxtəlif (siyasi) təsirlər altına düşməklə yaranmış hər hansı problemi ”həlledilməz” dərəcəsinə çatdırır, bununla da vəziyyətin gərginliyi yaşanır. Halbuki, problemlər həll edilir və bunu elə çoxsaylı qazilərimiz də etiraf edirlər. Fəqət, bir dövlət strukturunun (öz işinin öhdəsindən gələ, ya da gələ bilmirsə belə) qapılarını, şüşələrini qırmaqla nəyə isə nail olacağını düşünmək ilk növbədə QAZİ adına yaraşmayan bir məsələdir. Çünki qazilərimiz həm də ölkəmizin vətənpərvər övladları olmaqla yanaşı, başqalarına, xüsusən də yeniyetmələrimizə dövlətçilimizin müdafiəçiləri nümunəsidirlər. Onlar, ilk növbədə, dövlətimizin ərazi bütövlüyünü işğaldan azad etmək üçün gözlərini qırpmadan düşmənin üzərinə gedərək onun başını əziblər. Bəli, onlar müharibənin dəhşətli odu-alovu içindən çıxıblar və hər halda onları anlamaq çətin deyil. Lakin baş verən hadisə kontekstində yaşananlar hər birimizə daha bir təəssüf hissi yaşatdı. Söz yox ki, bunun da səbəbləri var.

İlk növbədə, düşmən ölkə Azərbaycanda gedən prosesləri söz yox ki, dərindən izləyir və məğlub ölkə olması ilə yanaşı, əlinə düşən hər imkandan dövlətimizə qarşı istifadə etməyə cəhdlər göstərir. Sosial şəbəkələrdə yayılmış görüntülər isə artıq düşmən KİV-lərində, sosial media səhifələrində boy-boy manşetlərdə yer almağa başlayıb. Gəlin bu fərqin təhlilini aparaq - düşmənlər yazırlar ki, ”Azərbaycan dövləti müharibə veteranlarına heç bir qayğı, diqqət göstərmir, onların problemlərini həll etmir və s.” Yaxud, bu məsələni gətirib-çıxarır ”insan hüquqları problemi” səviyyəsinə (?!).

Ermənilərlə yanaşı, bu günün özündə də erməni dəyirmanına su tökən sözdə müxalifət, əməldə isə daxili xəyanətkarlar - radikal müxalifət adlandırılan cinahın ”liderləri” əsla ermənilərdən fərqlənməyərək eyni məsələləri özlərinə aid informasiya resurslarından tirajlayırlar. Bax, fərq budur! Əgər qazilərimiz dövlət strukturunun qapı və şüşələrini qıraraq öz tələblərini irəli sürürlərsə (halbuki, onların hazırkı vaxta qədər bir sıra problemləri öz həllini tapmışdır, yerə qalanları isə həll edilmək üzrədir) düşmən mediası ilə daxili xəyanətkarlar eyni nöqtəyə vurmaqla bunu Azərbaycan dövlətinin əleyhinə istifadə edirlər. Bax, başımızın tacı olan qazi övladlarımız bu reallığı anlamalı və səbr, təmkin nümayiş etdirməlidirlər. Amma təəssüf ki, bəzi dairələrin təsirləri altında düşərək hansı əmələ rəvac verdiklərinin fərqinə vara bilmirlər. Nə deyək, gec də olsa bu həqiqəti də qəbul edəcəklərinə özümüz qədər inanırıq! Və bu gün belə bir sual da verə bilərik ki, sizlər, 44 gün mənfur düşmənə qan udduranlar, Vətənimizin bütövlüyü uğrunda dünyanı heyrətə gətirən şücaətlər göstərən qazilərimiz, bu gün həmin düşmənin sizdən sui-istifadə edərək öz xeyrinə iş aparmasına razı olardınıznı? Yəqin ki, bu sualın cavabı birdir və qətidir - ƏSLA!

Sonda isə daha bir məqama toxunmaq istərdim. Sözügedən insident zamanı Daxili İşlər Nazirliyinin polis nəfərlərinin qazilərimizə sarılaraq onların qayğılarına qalmaları həqiqətən də qürurverici bir mənzərə idi. Məhz bu mənzərədən sonra düşmənlərimiz bir daha şahidi oldular ki, Azərbaycan xalqı birdir, vahiddir və anında birləşib istənilən yağı qüvvəyə öz ölüm zərbəsini endirməyə hazırdır!

Qaldı ki hər hansı problemin gec həll olunmasına, ümid edək ki, bu kimi arzuolunmaz halların yaranmasına səbəbkar olanlar da yalnız qanunun tələbləri əsasında cavab verməli olacaqlar. Amma fakt budur ki, bütün hallarda qazilərlə dövlətin maraqları kəsişməməlidir. Çünki bu dövlət də, dövlətimizin qanunları da, Vətənimizə olan sonsuz sevgimiz də hamımızındır!

# Vətən öz igid oğullarını heç vaxt unutmur!



## Vətən müharibəsi şəhidi Elsevər Əhədzadənin doğum günündə xatirəsi anılıb



Nizami rayonunda Vətən müharibəsi şəhidi Əhədzadə Elsevər Ağacan oğlunun doğum günündə əziz xatirəsi yad olunub. Bununla əlaqədar Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, rayonun güc strukturlarının rəhbərləri və ictimaiyyət nümayəndələri Keşlə qəsəbəsindəki Şəhidlər Xiyabanında şəhidin məzarını ziyarət edib, önünə əklil qoyub, ruhuna dualar oxuyublar. Sonra şəhidin məzunu olduğu 62 saylı məktəb-liseydə anım tədbiri keçirilib.Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə canını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhid Elsevər Əhədzadənin xatirəsinə həsr edilmiş video-çarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Nizami Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Rüstəm Babayev, 62 saylı məktəb-liseyin direktoru Mətanət Cabbarova, şəhidin müəllimləri, döyüş yoldaşları, tələbə dostları və başqaları şəhidlərin, qazilərin, müharibə iştirakçılarının şücaətindən, döyüş yolundan, eləcə də müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən danışıblar.

Bildiriblər ki, 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun yağı düşmən üzərində zəfəri Azərbaycan tarixinə qızıl hərflərlə əbədi olaraq həkk olunub. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizi dərin ehtiramla yad edildiyi, onların əziz xatirələrinin daim uca tutulduğu diqqətə çatdırılıb.Şəhidin anası Dilbər Əhədova da çıxış edərək övladı ilə bağlı xatirələrini bölüşüb, bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Həmçinin şəhidlərin ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib.Çıxışlardan sonra məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirilib, vətənpərvərlik şeirləri səsləndirilib.Qeyd edək ki, Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılan Elsevər Əhədzadə Cəbrayıl-Füzuli istiqamətində aparılan əməliyyatlarında iştirak edib, 2020-ci ilin oktyabr ayının 21-də qəhrəmancasına şəhid olub. O, Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Onu da əlavə edək ki, şəhid Elsevər Əhədzadənin qardaşı Fərid Əhədzadə Vətən müharibəsinin qazisidir.

# YAP Samux rayon təşkilatında partiyaya üzv olmaq istəyən namizədlərlə görüş keçirilib



***Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının sədri Gündüz Bayramov partiyaya üzv olmaq üçün müraciət edən namizədlərlə görüş keçirib. Gündüz Bayramov Partiyanın Sədri, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətdən, onun uğurlu nəticələrindən, Partiya üzvləri qarşısında dayanan vəzifələrdən danışıb.***

G.Bayramov bildirib ki, bugünkü reallıqlar və faktlar sübut edir ki, aparılan düzgün və məqsədyönlü siyasətin bəhrəsi olaraq Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilməklə, dünyanın davamlı olaraq inkişafda olan dövlətidir. Sözsüz ki, əldə olunan böyük nailiyyətlər ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Ulu Öndərin ideyalarının, müəyyənləşdirdiyi strategiyanın reallığa çevrilməsində müasir dövrün müdrik lideri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çevik, praqmatik siyasəti mühüm rol oynayıb. Qürurverici haldır ki, partiya üzvlərimiz ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldırlar və ölkədə həyata keçirilən siyasi, iqtisadi, humanitar, sosial tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin, ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər.

Görüşdə o da qeyd edilib ki, vətəndaşların Ümummilli Liderin ideyaları əsasında fəaliyyət göstərən, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasına üz tutmasında partiyanın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət siyasətinin xüsusi rolu var. Bu gün Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin üz tutduğu ən etibarlı ünvan, insanların güvənc yeridir. Fəaliyyəti, ideyaları, apardığı siyasət, uzunmüddətli, dayanıqlı inkişaf konsepsiyası ilə ictimaiyyətin böyük dəstəyini qazanan Yeni Azərbaycan Partiyasının xalqla birliyi sayəsində dövlətçiliyimizin əsasları möhkəmləndirildi.Daha sonra çıxış edən partiya veteranları Şəmistan Yusifov və Gəray Bayramov Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafında, dövlətin güclənməsində, xalqımızın rifah halının yüksəlməsindəki misilsiz xidmətlərindən danışıb, namizədlərə tövsiyələrini veriblər. Partiyaya üzv olmaq üçün müraciət edən namizədlər YAP-ın fəaliyyətini, Prezident cənab İlham Əliyevin uğurlu siyasətini dəstəklədiklərini qeyd ediblər.

Daha sonra bir neçə nəfər YAP üzvünə üzvlük vəsiqəsi təqdim edilib və tədbir iştirakçıları ilə fikir mübadiləsi aparılıb. YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov onları maraqlandıran sualları cavablandırıb.

# YAP Binəqədi rayon təşkilatının əməkdaşları qadın və uşaq sığınacağında olublar



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva, aparatın əməkdaşları 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Binəqədi rayonunda yerləşən qadın və uşaq sığınacağında olublar. Qadın və uşaq sığınacağını ziyarət edən əməkdaşlar daha sonra mərkəzin sədri Mehriban Zeynalova ilə görüşüb, onların ehtiyacları, problemləri ilə maraqlanıblar. M.Zeynalova sığınacaq barədə onlara ətraflı məlumat verib. Bildirib ki, burada qadınların və uşaqların rahat yaşaması üçün hər cür şərait yaradılıb. O, eyni zamanda sığınacağa təşkil edilən ziyarətə görə təşəkkürünü bildirib.Görüşdə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva uşaqları əlamətdar gün münasibətilə təbrik edərək onlara ən xoş arzularını bildirib. Ölkəmizdə uşaqların hüquqlarının təminatı və onların hərtərəfli inkişafı üçün atılan addımlardan bəhs edib.Sonda körpələrimiz Bakı Humanitar Kollecin istedadlı kollektivinin ifasında onlar üçün hazırlanan bədii hissəyə və müxtəlif şoulara tamaşa ediblər. Görüşün sonunda sığınacaq mərkəzinin sakinlərini hədiyyələr ilə sevindiriblər.Görüş sığınacaq sakinlərində xoş təəssüratlarla yadda qalıb.



***Zümrüd BAYRAMOVA***

# Gəliri üç dəfədən çox artan ölkənin oğru əsgərləri...







***...bu il üç dəfədən də çox gəlirləri artan bir millətin nümayəndələri belə bir hərəkət, yəni oğurluq edərmi?***

Rusiya Qərbə qarşı iqtisadi müharibədə qalib gəlir və təzyiqlərə boyun əymir, ona qarşı sanksiyalar isə əks effekt verməkdədir.

SİA xəbər verir ki, bu fikri maliyyə jurnalisti kimi təqdim edilən ingilis Larri Elliot ”The Guardian”a yazdığı məqaləsində qeyd edib.

Beləliklə, rusların ”rambler” saytı ingilis jurnalistin dediklərinə istinadən yazır ki, guya Rusiya Federasiyasına qarşı tətbiq edilən məhdudiyyətlər Avropa ölkələrində neft və qazın qiymətini qaldırıb və bununla da Rusiyanın enerji ixracından əldə etdiyi gəliri artırıb.

”Maliyyəçi jurnalist” dediklərini əsaslandırmaq üçün əlavə faktlar da gətirir. Məsələn o yazır ki, 2022-ci ilin birinci rübündə rusların gəliri, 2021-ci ilin eyni dövrü ilə müqayisədə üç dəfədən də çox artıb. Eyni zamanda, Rusiya neftinə qoyulan embarqoya baxmayaraq, Moskva satış bazarları tapmaqda elə də çətinlik çəkməyib. Belə ki, təkcə aprel ayında enerji ixracını 50 faizdən də çox artırdığı Çini göstərir. Bu ölkəni ruslara ”sadiq alıcı” kimi təqdim etməyə də ”ərinmir”.

Elliot həmçinin qeyd edir ki, bu gün öz ”müvazinətini” saxlayan rus rublu güclü olaraq qalmaqdadır və alternativ təchizatçılar ölkəni Rusiyaya idxalı qadağan edilən ehtiyat hissələri və komponentlərlə təmin edə biləcəklər.

Məqalə müəllifi eyni zamanda, inkişaf etmiş ölkələrin iqtisadi tənəzzül və inflyasiyanın yüksəlməsi, işsizlərin sayının artması dövrünə qədəm qoyduğuna da diqqət çəkir. Bununla yanaşı, inkişaf etməkdə olan ölkələr üçün mövcud vəziyyət aclıq və borc böhranı ilə təhdid edir.

Maraqlıdır ki, Kremlə qarşı tətbiq edilən sanksiya siyasətinin səmərəsizliyinin daha bir sübutu kimi, ingilis jurnalist ABŞ-ın Ukraynanı reaktiv raket sistemləri ilə təchiz etmək qərarında görür.

Onun fikrincə, bu gün Qərbdə müasir texnologiyaların döyüş meydanında qalib gəlməyə kömək edəcəyinə ümid edirlər,.. amma, sən demə, onlar yanılırlar. Çünki hadisələrin belə, yəni onların düşündüyü kimi sonunclanacağı çətin görünür.

***...Hə, indi durub, bunların hansına inanasan?***

O gün rusiyalı jurnalist Aleksandr Nevzorov yazıb ki, hadisələrin bu cür gedişatı sonda elə də yaxşı heç nə vəd etmir. Yəni ” prezident Vladimir Putinin hiylələri Moskvanın bombalanması ilə başa çatacaq”.

İngilis Larri Elliot isə Ukraynanın uduzub, Rusiyanın qalib gəldiyindən yazır,..amma rus Nevzorov Ukraynanın tamamilə sərt və inamlı şəkildə Rusiyaya qalib gəldiyini deyir.

Rus yazır ki, Ukraynada döyüşən ruslar üçün çox çətin olacaq. Amma ingilis deyir ki, Rusiya varlanır deyə, ”heç bir qorxusu yoxdur”.

Hə, yadımdaykən o gün Rusiya hərbçiləri ukraynalıların sahibsiz qalan evlərindən oğurladıqları əşyalardan ibarət 130 irihəcimli bağlamaları kasıbçılığın ən yüksək həddə olduğu Rusiya bölgələrindən birinə göndərmək istəyiblər. Deyəsən, elə göndəriblər də...

İndi mən ingilis jurnalistdən soruşmaq istəyirəm, ötən ilin eyni dovrü ilə müqayisədə bu il üç dəfədən də çox gəlirləri artan bir millətin nümayəndələri belə bir hərəkət, yəni oğurluq edərmi?

***Ağasəf Babayev***

## “Texnofest” festivalı ölkəmiz üçün çox əhəmiyyətli idi




“Texnofest Azərbaycan” festivalının məhz Azərbaycanda keçirilməsi böyük əhəmiyyətə malikdir. İlk növbədə bu festival Azərbaycan və Türkiyənin birlikdə texnoloji qabliyyətlərini birgə nümayiş etdirdi”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Kərimli bildirib.



Onun sözlərinə görə, təbii ki, bütün bunları düşmənlər də izləyir. Zaman-zaman Azərbaycanı, Türkiyəni köçəri xalq kimi qələmə vermək istəsələr də, sonda öz yalanlarının qurbanına çevriliblər: ”Bu festival və Ukraynadakı hadisələr onu göstərir ki, qardaş Türkiyənin istehsal etdiyi ”Bayraqdar” və digər müasir texnolji avadanlıqlar dünya brendinə çevrilib. Təsadüfi deyil ki, Səlcuq Bayrakdarı Türk dünyasının İlon Maskı hesab edirlər. Səlcuq bəy öz çıxışında da tövsiyyə etdi ki, gənclər bu təyyarələrlə toxunub, maraqlansınlar və gələcəkdə kosmosa belə gedib çıxsınlar. Əlbəttə, bu həm də Türkiyə və Azərbaycan dövlətlərinin bir millət olduqlarının nümayişi idi. Festivalda türkiyə dövlətinin Prezidenti və Nobel mükafatçısı da iştirak edirdi. Bununla da bütün dünya iki dövlətin qardaş olduqlarına bir daha əmin oldu. Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışı zamanı da qeyd etdi ki, biz iki gücümüzü birləşdirmişik və hər zaman Türkiyənin yardımını hiss edirik. Bu həqiqətən də belədir. Bu, gözəl ənənədir. Qeyd etmək istərdim ki, bu festival ilk dəfə idi Türkiyənin hüdudlarından kənarda keçirilirdi.

***Abutel İlhamqızı***

# Bakı Enerji Həftəsi: Azərbaycan beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzidir

***Xəbər verdiyimiz kimi, bu həftə Azərbaycanda Bakı Enerji Həftəsi keçirilir. Bu il o, eyni vaxtda 3 böyük tədbiri- "Xəzərin neft və qazı", "Enerji və bərpa olunan enerji" beynəlxalq sərgilərini və Bakı Enerji Forumunu birləşdirir. Enerji həftəsində dünyanın 30 ölkəsindən 250 şirkət iştirak edir.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***



Bakı Enerji Həftəsi Xəzər regionunun neft-qaz və enerji sektorlarında ən mötəbər tədbirdir. Onun iştirakçıları arasında dünyanın nüfuzlu və iri şirkətləri də var. Həftənin əsas hadisələrindən biri Xəzər regionunda əsas neft və qaz layihələrini müzakirə etmək və enerji təhlükəsizliyini təmin etmək üçün hər il yüksək səviyyəli rəhbərləri bir araya toplayan beynəlxalq platforma olan "Caspian Oil and Gas" sərgisidir. Şirkətlər neft hasilatı və enerjinin nəqli, neft və qaz sistemlərinin saxlanması və xidmətləri sahəsində innovativ texnologiyalar, eləcə də regionda cari və perspektiv neft-qaz layihələri və bir sıra digər nailiyyətləri nümayiş etdirəcəklər.





Azərbaycan dünyada bir ənənəvi enerji ölkəsi kimi tanınır. Lakin ölkəmiz bununla kifayətlənməyərək gələcəyin enerjisinə- alternativ və bərpaolunan enerjilərə böyük diqqət ayırır. Azərbaycan Prezidenti İlham Əliyevin açılış nitqində bu məsələyə geniş toxunub.

"Hazırda biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur ki, onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcəkdir və bu, yalnız başlanğıcdır. Çünki biz artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindəyik. Xəzər dənizinin nəhəng potensialı var və artıq bu hesablama aparılıb. Mənə verilən məlumata görə, Xəzər dənizinin Azərbaycan sektorunun potensialı 150 min meqavat təşkil edir, yəni, bu, nəhəng həcmdir.

Eyni zamanda, İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının potensialının 9-10 min meqavat olduğunu hesab edirik. Burada söhbət külək və günəş enerjisindən gedir. Buraya hidroelektrik enerjini əlavə etsək, - hansı ki, onun da böyük potensialı var, - buraya daha 1000 meqavat və ya artıq güc əlavə etmək olar. Bütün bunlar bizim hökumətimiz tərəfindən ciddi şəkildə nəzərdən keçirilir və bərpaolunan enerjiyə nə qədər çox sərmayə qoyulacaq, bir o qədər qaza qənaət ediləcək və ixrac olunacaq, bu, təbiidir" -ölkə başçısı deyib.

Prezident Azərbaycanın enerji istehsalçısı kimi yox, həm enerji tranzitçisi kimi böyük potensiala malik olduğunu bildirib: "Bu gün artıq Azərbaycan digər ölkələr üçün vacib tranzit imkanlarını təqdim edir. Bu potensialdan da maksimum dərəcədə istifadə oluna bilər. Təəssüf ki, bu günədək bu potensialdan tam istifadə edilməyib. Təəssüf ki, Azərbaycanın mühüm tranzit ölkəsi qismində potensialı təchizatçılar tərəfindən düzgün qiymətləndirilməmişdir.

Hesab edirəm ki, bu gün artıq onlar fikirlərini dəyişiblər. Çünki hər kəs anlayır ki, şaxələndirmə enerji təhlükəsizliyinin başlıca amillərindəndir. Biz isə enerji strategiyamızın həyata keçirilməsinin ilk günündən etibarən şaxələndirmə üzərində çalışmışıq. Bunun nəticəsində bizim şaxələndirilmiş ixrac marşrutlarımız var - müxtəlif istiqamətə uzanan 3 neft boru kəməri və 4 qaz boru kəmərimiz mövcuddur. Elektrik enerjisi xətlərinə gəldikdə isə biz 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edirik və Avropaya elektrik enerjisi ixrac etməyi planlaşdırırıq.

Biz Zəngəzur dəhlizinin fəaliyyətinə start vermək istəyirik. Bu da yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər. Biz işlərə başlamışıq və bu istiqamətdə investisiya ilə bağlı artıq praktiki addımlar atırıq. Beləliklə, hər bir məsələdə şaxələndirmə vacibdir.

Qeyd edək ki, enerji istehsalı və ixracı ölkəmizin iqtisadi potensialını gücləndirir, imkan yaradır ki, neft-qaz sektorundan əldə edilən gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilsin. Təsadüfi deyil ki, bu il ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində artım 15 faizdən artıq olub. Bütün bunlar neft gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönəldilməsinin təzahürüdür.

Bu gün Azərbaycan xarici investisiya üçün olduqca cəlbedici ölkələrdəndir. Qarabağda və Zəngəzurda aparılan yenidənqurma işləri ölkəmizin iqtisadi potensialını artıracaq.

Göründüyü kimi, Azərbaycan böyük bir regionda iqtisadi əməkdaşlıq platformasının mərkəzinə çevrilir. Belə beynəlxalq tədbirlər isə bu əməkdaşlığı daha da gücləndirir. İqtisadçılar da hesab edir ki, Azərbaycanın iqtisadi nüfuzunun artması ölkəmizi dünyada vacib bir mərkəzə çevrir.



Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov SİA-ya açıqlamasında bildirib ki, Bakı Enerji Həftəsi ən böyük və vacib tədbirlərdəndir: "Burada ABŞ, Avropa İttifaqına üzv olmuş ölkələr, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Sinqapur, Çin və s. aparıcı ölkələrin şirkətləri təmsil olunur. Bütün bunlar isə onlardan xəbər verir ki, kifayət qədər böyük iştirakçılıq və coğrafi baxımdan geniş regionu əhatə edən bir tədbirdir. Həmçinin Azərbaycanın enerji imkanlarının yenidən təqdim olunması və xüsusən regionun eləcə də Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın rolunun artmasını şərtləndirən faktorların məlumatı baxımından vacibdir. Ona görə də təbii ki, belə bir tədbirin keçirilməsi Azərbaycanın regionda enerji siyasətində öndə olan dövlətlərdən biri olduğunu təsdiq edir. Bu Azərbaycanın enerji sahəsindəki əlaqələrinin qurulması, müzakirələrin aparılması, yeni texnologiyaların tətbiqi imkanları ölkəmizin potensialının tətbiqi deməkdir. Bu Azərbaycanın enerji sektoru, eyni zamanda iqtisadiyyatı üçün önəmlidir".

"Bakıda keçirilən 27-ci Energetika forumu bütün dünyaya bir daha göstərdi ki, Azərbaycan bütün sahələrdə olduğu kimi, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da etibarlı tərəfdaşdır." Bu sözləri isə SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, Bakı-Tbilisi-Ərzurum qaz, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərlərinin reallaşdırılması və səmərə verməsi, yeni bir boru kəmərinin Cənub Qaz dəhlizinin zəruriliyini ortaya qoydu.

"Dövlətimizin başçısının qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi fəxr edə, fərəhlənə biləcəyimiz layihədir. Eyni zamanda, o bizə nəhəng "Şahdəniz" qaz-kondensant yatağında hasilatı artırmağa imkan yaradan önəmli strukturdur. Cənub Qaz Dəhlizinin üç boru kəmərindən ibarət vahid boru kəmərləri sistemi olduğunu nəzərə alsaq, onun böyük əhəmiyyətə malik olduğunu aydın görərik. Onun sonuncu hissəsi Trans-Adriatik boru kəmərinin buraxıcılıq qabiliyyəti 10 milyard kubmetrdir. Bu gün Azərbaycan dünya ölkələrinə yalnız neft, qaz ixrac etmir. O həm də elektrik enerjisi ixrac edən bir ölkədir.

Bakı Enerji həftəsi çərçivəsində 27-ci beynəlxalq Xəzər Neft və Qaz sərgisinin rəsmi açılış mərasimində Azərbaycanın bərpa olunan enerji potensialı haqqında da ətraflı və dəyərli fikirlər söylənilibdir. Bildirilib ki, Azərbaycan bu sahədə əlverişli imkanlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycan sektorunun bu sahədə potensialının 150 min meqavat, Kəlbəcər və Laçının potensialının 9-10 meqavat təşkil etdiyi göstərilibdir. İşğaldan azad olunmuş ərazilər də bu baxımdan imkanlıdır.

Əlbəttə ki, bütün bunlar dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasına Azərbaycanın gələcəkdə yeni töhfələr verəcəyini reallaşdırır. Məhz buna görə də dünyanın, xüsusilə Avropa dövlətlərinin ölkəmizə olan marağı artır və münasibətlər gündən-günə yaxşılaşır",- deyə Tahir Rzayev bildirib.

Göründüyü kimi, qlobal iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan həm özünün iqtisadi imkanlarını artırır, həm də beynəlxalq iqtisadi əməkdaşlıq platformasının mərkəzlərindən birinə çevrilir. Bu isə ölkəmizin güclənməsinə, böyük həcmli beynəlxalq və regional layihələr həyata keçirməsinə, həmçinin ölkə daxilində böyükl sosial-iqtisadi islahatlar keçirməsinə imkan verir.

***Elçin***

SON SƏHİFƏ

Səs

4 iyun
2022-ci il

# Bu futbolçu illik 19 milyon avroluq maaşı rədd etdi!



***Münhen "Bavariya"sının futbolçusu Serj Qnabri klubun yeni müqavilə təklifini rədd edib. Qol.az xəbər verir ki, bu barədə "Bild" məlumat yayıb.***

26 yaşlı müdafiəçi Münhen təmsilçisi ilə müqaviləni yeniləmək istəməyib. Ona illik 19 milyon avroya qədər maaş təklif olunub. Lakin Qnabri bunu rədd edib. "Bavariya" rəhbərliyi təklifi təkmilləşdirmək fikrində deyil. Tərəflərin danışıqları davam etdirmək planları yoxdur.

# İşə qəbul üçün magistr diplomu vacibdir?



***"İşə qəbul üçün əslində indiki əmək bazarının tələblərində bəzən heç bakalavr diplomuna da ehtiyac olmur. Bu da təbii ki, adətən özəl sektorla bağlı olur.***

Çox uğurlu insanlar var ki, onlar öz özəl işlərini qururlar. Bu halda da təbii ki, bakalavr diplomuna da ehtiyac duyulmur". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert İlqar Orucov bildirib. Onun sözlərinə görə, bu situasiya təkcə bizim ölkəmiz üçün xarakterik deyil: "Dünyanın fərqli-fərqli ölkələrində də hazırda vəziyyət belədir. Əsas məsələ işi bilməkdir.

Təbiidir ki, insan bir sahənin mütəxəssisi olar və heç biri ali təhsili olmadığı halda belə ona çox yaxşı yerlərdən iş təklifləri gələr. Bu cür insanlar da dünyada kifayət qədərdir. Hazırda bir çox hallarda magistr diplomlu şəxslər də var ki, onlar əmək bazarında da iş tapa bilmirlər. Buna görə də hazırda tələblər xeyli fərqlidir. Lakin başa düşmək lazımdır ki, təhsil yalnız iş tapmaq üçün lazım deyil. Təhsil insanı sosiallaşdırır, onun mədəni səviyyəsini yüksəldir. Buna görə də əlavə olaraq magistr təhsilinin də olması yaxşıdır. Lakin əmək bazarında qeyd etdiyim kimi bir çox hallarda buna fikir verən olmur. Buna görə də düşünürəm ki, hazırda diploma yanaşı bilik, bacarıq və peşəkarlığa daha çox üstünlük verilir".

***Səbinə Hüseynli***

# İnstagram itkin düşən uşaqları tapacaq



***İnstagram itkin düşən uşaqlar haqqında insanlara məlumat vermək üçün "Amber" xəbərdarlıqları göndərməyə başlayacaq. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, funksiya sabahdan etibarən əlçatan olacaq və növbəti həftələrdə artıq 25 ölkədə istifadəyə veriləcək.***

Qeyd edək ki, instagram istifadəçiləri bu xəbərdarlıqlara davamlı olaraq məruz qalmayacaqlar. Şirkət bildirib ki, xəbərdarlıqlar "nadir və axtarış ərazisinə uyğun" olmalıdır.

İnstagram bildirişlərin hansı hesablara göndəriləcəyini müəyyən etmək üçün IP ünvanları və naviqasiya məlumatları (əgər aktivdirsə) kimi amillərdən istifadə edəcək.

Xəbərdarlıqlar tətbiqdaxili bildirişlər kimi deyil, istifadəçi lentlərində göstəriləcək. Digər bildirişlərdən fərqli olaraq burada itkin düşən uşağın şəkli və təsviri, həmçinin onun sonuncu dəfə harada görüldüyü kimi digər müvafiq detallar yer alacaq. Eyni zamanda bununla bağlı hüquq-mühafizə orqanlarına məlumat vermək üçün əlaqə nömrəsi də qeyd ediləcək. Məxfilik və təhlükəsizliklə bağlı daha aktiv addımlar atan tətbiq mövzu uşaqlar olduqda bunu daha da ciddiləşdirməkdə qərarlıdır.

***Mirqəmər Mənsimova***

# Qızını öldürən ata tutuldu

***İyunun 3-ü saat 12 radələrində Abşeron rayon sakini 1987-ci il təvəllüdlü Jalə Davudovanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat verilib.***

Abşeron Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, aparılmış araşdırmalarla zərərçəkmişin atası 1964-cü il təvəllüdlü İftixar Davudovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarətlər yetirərək Jalə Davudovanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən olunub.



Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. İftixar Davudov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Bakıda əcnəbi vətəndaşın çantasından 6000 dollar oğurlanıb

Bakıda hosteldə əcnəbi vətəndaşın çantasından 6 min dollar oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Səbail Rayon Polis İdarəsinin 39-cu Polis Bölməsinə rayon ərazisindəki hostellərin birində əcnəbi vətəndaşın çantasından 6 000 ABŞ dollarının oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də oğurluğa görə məhkum olunmuş O.Abdullayev müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**